Əlixan Musayev

# QURAN ƏHLI

Rəsulullah ﷺ dedi:

**"İnsanlar arasında Allahın seçilmiş qulları vardır".**

Səhabələr soruşdular:

"Kimlərdir onlar, ya Rəsulullah?"

Rəsulullah ﷺ buyurdu:

**"Onlar Quran əhlidir. Allahın sevdiyi və seçdiyi qullarıdır".**

*("Musnəd İmam Əhməd", 1/556)*

**Redaksiya heyəti:**

**Ə. Musayev**

**M. Qarayev**

**A. Salehli**

**M. Kərim**

**E. Rüstəmov**

بسم الله الرحمن الرحيم

**Mərhəmətli, Rəhmli Allahın adı ilə**

# MÜQƏDDİMƏ

Həqiqətən, həmd-sənalar yalnız Allaha məxsusdur! Biz Ona şükür və həmd edir, Onuköməyə çağırır, Ondan bağışlanmağımızı və bizi haqq yoluna yönəltməsini diləyir, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət versə, o kimsə haqq yolunda olar. Azmaq istəyəni də haqq yoldan azdırsa, onu bu yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd ﷺ Onun qulu və rəsuludur.

**“Ey iman gətirənlər, Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!”**[1]

**“Ey insanlar, sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir”.**[2]

**“Ey iman gətirənlər, Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar”.**[3]

Şübhəsiz, ən xeyirli kəlam Allahın Kəlamı, ən doğru yol da Peyğəmbərimiz Muhəmmədin ﷺ yoludur. Ən pis əməl isə dinə əlavə edilən yeniliklərdir. Hər bir yenilik bidət, hər bir bidət zəlalət, hər bir zəlalət də Cəhənnəmə aparan yoldur.

---

[1] “Ali-İmran” surəsi, 102.
[2] “ən-Nisa” surəsi, 1.
[3] “əl-Əhzab” surəsi, 70-71.

Möhtərəm oxucu! Bu kitabı yazmaqda məqsədimiz uca Allahın Öz Peyğəmbərinə ﷺ Cəbrail mələyin عليه السلام vasitəsilə nazil etdiyi Quranı müsəlmanlara sevdirməkdir.

Bəli, hər bir müsəlman dili ilə: "Mən Quranı sevirəm, ona iman gətirmişəm"– deyə bilər, lakin bu mübarək Kitabın haqqını ödəməsə, onu layiqincə sevmiş və ona iman gətirmiş sayılmaz. Bu xüsusda, uca Allah Quranda belə buyurur: **"Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar".**[1] Səhabə Abdullah ibn Abbas رضي الله عنهما bu ayəni izah edib: «**"onu layiqincə oxuyurlar"**, yəni Qurana layiqincə tabe olurlar"» – demişdir.[2]

Rəsulullah ﷺ Quranı layiqincə oxuyan möminlər barədə belə demişdir: **"İnsanlar arasında Allahın seçilmiş qulları vardır".** Səhabələr soruşdular: "Kimlərdir onlar, ya Rəsulullah?" Rəsulullah ﷺ dedi: **"Onlar Quran əhlidir. Allahın sevdiyi və seçdiyi qullarıdır".**[3]

Ayə və hədisdən aydın başa düşülür ki, Allahın ən çox sevdiyi və Ona ən yaxın olan kimsələrdən olmaq üçün daim Quran oxumaq və Quranda buyurulanlara əməl etmək – əmrləri yerinə yetirmək və qadağalardan çəkinmək, halalı halal, haramı haram qəbul etmək lazımdır.

Peyğəmbərimizin ﷺ və onun səhabələrinin رضي الله عنهم Qurana necə ehtiram göstərdiklərini və bunun müqabilində Allahın onları necə mükafatlandırdığını bilsəniz, gecə-gündüz bu mübarək Kitabı oxuyar və içində buyurulanlara əməl edərsiniz.

Qurani-Kərim doğru yol göstərən, nur saçan və şəfa verən bir kitabdır. Kaş, müsəlmanlar bunu dərk edəydilər!

---

[1] "əl-Bəqərə" surəsi, 121.

[2] "Təfsir İbn Kəsir", 1/282.

[3] "Musnəd İmam Əhməd", 1/556; "Səhih ət-Tərğib vət-Tərhib", 1432.

**“Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır”.**[1]

**“Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır”.**[2]

**“Həqiqətən, bu** ***Quran, haqqı batildən*** **ayırd edən bir kəlamdır”.**[3]

Kim içində heç bir şəkk-şübhə olmayan, haqqı batildən ayırd edən bu mübarək Kitabı oxuyub öyrənsə və onu başqalarına öyrətsə, müsəlmanların ən xeyirlisi hesab olunar. Bu xüsusda, Rəsulullah ﷺ demişdir: **“Sizin ən xeyirliniz Quranı öyrənən və onu** ***başqalarına*** **öyrədəninizdir”.**[4]

Təkəbbürlükdən Allaha sığınaraq, müsəlmanları xeyirli işlərə təşviq etmək məqsədilə qeyd etmək istərdik ki, Qurani-Kərimi altı il ərzində ana dilimizə mənaca tərcümə edib oxuculara təqdim etmişik. Tərcümə əsnasında hər bir ayənin düzgün anlaşılması üçün bir çox mötəbər təfsir mənbələrinə müraciət etmişik.

Bu tərcümənin dəqiqliyi Mədinə şəhərində yerləşən “Kral Fəhd bin Əbdüləziz adına Quran kompleksi”nin elmi şurası tərəfindən təsdiqlənmiş, sonra da Vəqflər naziri Saleh Ali Şeyxin göstərişi ilə çap olunub azərbaycandilli zəvvarların istifadəsi üçün iki böyük məsciddə – Məscidulhəramda və Peyğəmbərin ﷺ məscidində rəflərə yerləşdirilmişdir.

Bu tərcümə Azərbaycan Milli Elmlər Akademiyasının kitabxanasına da təqdim edilmişdir.

---

[1] “əl-Bəqərə”, surəsi, 2.

[2] “əl-Ənam”, surəsi, 155.

[3] “ət-Tariq”, surəsi, 13.

[4] “Səhih əl-Buxari”, 5027.

Bundan əlavə, oxumaqdan daha çox dinləməyə üstünlük verən həmvətənlərimiz də nəzərə alınmışdır. Bu tərcüməni ana dilimizdə iki böyük sənətkar – xalq artisti Rasim Balayev və Azərbaycan televiziyasının aparıcısı Rafiq Həşimov səsləndirmişdir.

Bu tərcümənin elektron nəşrini oxumaq istəyənlər onu internet vasitəsilə bir çox saytlardan, o cümlədən bizə məxsus www.burhan.az saytının kitablar bölümünə daxil olub kompüterə və ya telefona yükləyə bilərlər.

Bu qeydlərin müqəddimədə təqdim olunması şəxsi tərif məqsədi üçün deyil, əksinə Qurani-Kərimin dəyərini və ona xidmətin əhəmiyyətini vurğulamağa yönəlmişdir. Bu mənada, Quranda buyurulmuş bu ayəni rəhbər tuturam: **"Özünüzü təmizə çıxartmayın! Çünki O, kimin *Allahdan* qorxduğunu yaxşı bilir".**[1]

Bu ayədəki qadağaya əsasən, insanın özünü tərifləməsi doğru hesab edilmir; əksinə, mömin daim Peyğəmbərinﷺ bizə öyrətdiyi şəkildə Allaha yönələrək belə dua etməlidir:

(( اللَّهُمَّ آتِ نُفُوسَنَا تَقْوَاهَا وَزَكِّهَا، أَنْتَ خَيْرُ مَنْ زَكَّاهَا، أَنْتَ وَلِيُّهَا وَمَوْلَاهَا ))

**"Allahım, nəfsimizə təqva bəxş et və onu təmizə çıxart! Sən təmizə çıxaranların ən xeyirlisisən, Sən nəfsimizin qəyyumu və hamisisən!"**[2]

---

[1] "ən-Nəcm", surəsi, 32.

[2] "Səhih Muslim", 6844.

Bu kitabda biz Quranı oxuculara sevdirmək və onların Quran əhlindən olmalarına töhfə vermək məqsədilə aşağıda qeyd olunan mövzulardan bəhs edəcəyik:

– *Qurani-Kərimin nazil olması və kitab halına salınması tarixi;*
– *Qurani-Kərimin fəziləti;*
– *Qurani-Kərimi oxumaq üçün ən fəzilətli vaxt;*
– *Qurani-Kərimi oxuyub-ağlayanlar;*
– *Qurani-Kərimin xeyir-bərəkətinə nail olmağın yeddi yolu;*
– *Qurani-Kərimin doğru yola yönəltdiyi kimsələr;*
– *Qurani-Kərimi əzbərləməyin on bir qaydası;*
– *Qurani-Kərimi oxumayanların halı.*

Əzəmətli və qüdrətli Allahdan Onun gözəl adları və uca sifətləri ilə diləyirik ki, bizim bu əməlimizə bərəkət versin, onu məhz Allahın rizasını qazanmaq xatirinə edilən əməllərdən etsin, bunun sayəsində bizə savab və mükafat bəxş etsin və bu kitabı, onu oxuyub içində yazılanlara əməl edən və onu hər tərəfə yayan kimsələr üçün faydalı etsin; bizi daim Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin. Allah hər şeyi Eşidən, duaları Qəbul Edəndir. İnsanı yaxşı işlər görməyə müvəffəq edən və onu doğru yola yönəldən də yalnız Allahdır. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur.

Peyğəmbərimizə, onun ev əhlinə, səhabələrinə və onların ardıcıllarına Allahın salavatı və salamı olsun!

***Əlixan Musayev***
*02.02.2026*

# Qurani-Kərimin nazil olması və kitab halına salınması tarixi

Qurani-Kərim uca Allahın Muhəmməd peyğəmbərə ﷺ Cəbrail mələyin عليه السلام vasitəsilə vəhy etdiyi kəlamıdır.

Bu, içində heç bir şəkk-şübhə olmayan, doğru yol göstərən, nur saçan, şəfa verən mübarək bir kitabdır. O kitab ki, məhz onun sayəsində qəlblər rahatlıq tapır. Bu kitab xüsusunda Allahın elçisi ﷺ belə demişdir: **"Bu Quran, bir ipdir. Onun bir ucu Allahın Əlində, digər ucu isə sizin əlinizdədir. Elə isə ondan möhkəm tutun! Siz ondan möhkəm tutduqca, əsla zəlalətə düşməz və heç vaxt həlak olmazsınız!"**[1]

İslam ümmətinin əvvəlinciləri və sonra gələnləri bu kitaba xüsusi xidmət göstərmiş, Allahın izni ilə onu həm hafizələrində, həm də yazılı şəkildə qoruyub saxlamışlar.[2] Səhabələr onu Peyğəmbərdən ﷺ ayəbəayə öyrənib yadda saxlamış, onun tələblərini yerinə yetirmiş və onu başqalarına öyrətmişlər. Peyğəmbərin ﷺ səhabəsi Abdullah ibn Məsud رضي الله عنه demişdir: "Biz Peyğəmbərdən ﷺ on ayə öyrənib əzbərləməyincə və onların tələblərini yerinə yetirməyincə, digər on ayəni öyrənməzdik".[3]

Səhabələrdən sonra gələnlər də o dövrdən indiyədək bu mübarək kitaba xidmət etmişlər. Quranın təfsiri[4] və onun

---

[1] "Səhih ibn Hibban", 122; "Silsilə əl-Əhadis əs-Səhihə", 713.

[2] Bu xüsusda, Quranda belə buyurulur: **"Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və əlbəttə, Biz də onu qoruyacağıq".** ("əl-Hicr" surəsi, 9);

**"Batil *sözlər* Qurana nə önündən, nə də arxasından girişə bilər".** ("Fussilət" surəsi, 42).

[3] "Təfsir ət-Təbəri", 1/80; "Təfsir İbn Kəsir", 1/13.

[4] Təfsir: şərh və izah etmə.

fəzilətləri xüsusunda, habelə nəsx[1] və mənsux[2] ayələr, ayələrin nazil olma səbəbləri[3], muhkəm[4] və mutəşabih[5] ayələr barədə yüzlərlə kitab yazılmışdır. Bu mübarək kitaba xidmət etməyin fəziləti xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir".**[6]

Qurana xidmət etmiş və edən kəslərin fəziləti barədə rəvayət edilmiş bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"İnsanlar arasında Allahın əzizləri vardır".** Səhabələr رضي الله عنهم soruşdular: "Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: **"Quran əhli. Onlar Allahın əzizləri və Onun ən yaxınlarıdır".**[7] Burada **"Quran əhli"** deyildikdə, onu əzbərləyən, gündəlik olaraq onu oxuyan, içində buyurulanlara əməl edən və onu başqalarına öyrədən kimsələr qəsd edilir.

Qurana xidmət etmiş möminlərə gəlincə, əlbəttə ki, onların ən fəzilətlisi Peyğəmbərimizdir ﷺ. Rəsulullah ﷺ Allahın ona etibar etdiyi bu əmanəti iyirmi üç il ərzində insanlara və cinlərə

---

[1] Nəsx etmək: ləğv etmək. Quranda "nəsx etmək" deyildikdə, ayənin hökmünün, ləfzinin və ya ləfzinin və ya hər ikisinin aradan qaldırılması nəzərdə tutulur. Bu xüsusda, "əl-Bəqərə" surəsinin 106-cı ayəsində belə buyurulur: **"Biz *hər hansı* bir ayəni nəsx edir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk".**

[2] Mənsux, "ləğv edilmiş" mənasını ifadə edir və ayənin hökmünün, ləfzinin və ya hər ikisinin ləğv edilməsi halını bildirir. Məsələn, içki barəsində nazil olmuş "əl-Bəqərə" surəsinin 219-cu və "ən-Nisa" surəsinin 43-cü ayələrindəki sərxoşedici içkiyə aid hökm sonradan "əl-Maidə" surəsinin 90 və 91-ci ayələri ilə nəsx edilmişdir. Yəni əvvəl nazil olmuş bu iki ayə mənsux / hökmü aradan qaldırılmış ayələrdir.

[3] Qurandakı bəzi ayələr müəyyən hadisələr zamanı nazil olmuşdur. Elə buna görə də həmin hadisələr o ayələrin nazil olma səbəbi sayılır.

[4] Muhkəm: mənası aydın olan, hər kəsin başa düşdüyü ayələr.

[5] Mutəşabih: müstəsna insanların başa düşdüyü ayələr.

[6] "Səhih əl-Buxari", 5027.

[7] "Musnəd İmam Əhməd", 1/556; "Səhih ət-Tərğib vət-Tərhib", 1432.

təbliğ etmişdir. Onun dövründə Quranı əzbər bilən və onun mənasını anlayan minlərlə səhabə olmuşdur ki, onların hamısı Quran ayələrini dinləyərək əzbərləyərdilər. İçərilərində az sayda yazıb-oxumaq bilən var idi ki, Peyğəmbər ﷺ onların bir qisminə Quranı yazıya köçürməyi tapşırmışdı. Quranı yazan katiblərdən ən məşhurları Əbu Bəkr əs-Siddiq, Ömər ibn əl-Xəttab, Osman ibn Affan, Əli ibn Əbu Talib, Abdullah ibn Məsud, Zeyd ibn Sabit, Ubeyy ibn Kəb və digərləridir رضي الله عنهم.

Həmin dövrdə səhabələr Quran ayələrini yalnız pak və daşınması əlverişli olan materiallar üzərinə yazardılar. Buna ağac gövdəsinin qabığını, ağac yarpağını, pak dərini, parçanı və ya kağızı, dəvənin və ya qoyunun kürək sümüyünü, yaxud qabırğasını, yüngül daş parçasını və sairə bənzər əşyaları misal çəkmək olar.

Qeyd edək ki, səhabələr Quranı gözəl avazla oxumağa çalışardılar. Çünki bu xüsusda, Rəsulullah ﷺ belə demişdir:

**“Quranı öz səsinizlə gözəlləşdirin! Şübhəsiz ki, gözəl səs Quranın ancaq gözəlliyini artırar!”**[1]

**“Gözəl səs Quranın zinətidir!”**[2]

**“Quranı avazla oxumayan kəs bizdən deyildir[3]”.**[4]

Hərçənd, səhabələrin hamısı Quranı gözəl avazla oxusa da, Rəsulullah ﷺ ilahi kəlamı xüsusi olaraq səhabələrinin bəzisindən öyrənməyi tövsiyə edər, o şəxsləri tərifləyər, hətta Quranı onlardan dinləməyi xoşlayardı. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Quranı dörd nəfərdən öyrənin: “Abdullah**

---

[1] “Musnəd əd-Darimi”, 3501; “Səhih əl-Cami”, 3145.

[2] “əl-Mocəmul-Kəbir”, 10/82/10023; “Silsilətul-Əhadisis-Səhihə”, 1815.

[3] Yəni bizim yolumuzu tutub gedən müsəlmanlardan deyil.

[4] “Səhih əl-Buxari”, 7527.

**ibn Məsuddan, Huzeyfənin azad etdiyi köləsi Salimdən, Muaz ibn Cəbəldən və Ubeyy ibn Kəbdən".**[1]

Digər bir hədisdə xəbər verilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: "Bir gün Peyğəmbər ﷺ mənə belə buyurdu: **"Mənə Quran oxu!"** Mən dedim: "Ya Rəsulullah, Quran sənə nazil olduğu halda, onu sənə mənmi oxuyacağam?!" Peyğəmbər ﷺ dedi: **"Bəli, mən onu başqasından dinləməyi xoşlayıram".** Mən ona "ən-Nisa" surəsini oxumağa başladım. Nəhayət, bu surədəki: **"Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman *onların halı* necə olacaq?"** ayəsinə[2] çatdıqda Peyğəmbər ﷺ mənə: **"Kifayətdir!"**– dedi. Mən başımı qaldırıb baxdım ki, Peyğəmbər ﷺ ağlayır".[3]

Başqa bir hədisdə rəvayət edilir ki, Bureydə ibn Husayb əl-Əsləmi ﷺ belə demişdir: "Bir gecə mən məscidə gəldim və Rəsulullahın ﷺ məscidin qapısı önündə durduğunu gördüm. Baxdım ki, bir nəfər məsciddə namaz qılır *və Quranı yüksək səslə oxuyur*. Rəsulullah ﷺ məndən soruşdu: **"Ey Bureydə, səncə bu adam riyakarlıq edirmi?"** Dedim: "Allah və Onun rəsulu daha yaxşı bilir". Onda, Rəsulullah ﷺ dedi: **"Xeyr, bu adam əsl mömindir. Ona Davud peyğəmbərin səsi kimi məlahətli bir səs bəxş edilmişdir".** Sonra mən məscidə daxil oldum və gördüm ki, bu şəxs Əbu Musa əl-Əşaridir".[4]

Yenə rəvayət edilir ki, bir gün Peyğəmbər ﷺ Ubey ibn Kəbə ﷺ dedi: **"Allah mənə "Kitab əhlindən və müşriklərdən**

---

1 "Səhih Muslim", 7/148.
2 "ən-Nisa" surəsi, 41.
3 "Səhih əl-Buxari", 4582; "Səhih Muslim", 800.
4 "Musnəd İmam Əhməd", 5/349.

**inkar edənlər..." surəsini[1] sənə oxumağımı buyurdu".** Ubey soruşdu: "Allah mənim adımı çəkdi?" Peyğəmbər ﷺ: **"Bəli!"**– deyə cavab verəndə, Ubey ağlamağa başladı".[2]

Yenə bir rəvayətdə xəbər verilir ki, bir gecə Useyd ibn Hudeyr رضي الله عنه "əl-Bəqərə" surəsini oxuyurdu. Atı da onun yanında yerə bağlanmışdı. Birdən at təşvişə düşüb şahə qalxdı. *Bunu görən* Useyd susdu, at da sakitləşdi. Sonra o oxumağına davam etdi və at yenə təşvişə düşüb şahə qalxdı. Useyd susdu, at da sakitləşdi. Sonra o yenidən oxumağa başladı və at yenə də həyəcanlanaraq şahə qalxdı. Bundan sonra o daha oxumadı. Həmin vaxt Useydin oğlu Yəhya atın yaxınlığında idi və Useyd qorxdu ki, at uşağı tapdalayar. Useyd uşağı yanına çəkdikdən sonra başını göyə qaldırdı, lakin aydın bir şey görə bilmədi. Səhəri gün Useyd bu hadisəni Peyğəmbərə ﷺ danışdı. Peyğəmbər ﷺ *ona*: **"Oxu, ey İbn Hudeyr! Oxu, ey İbn Hudeyr!"**– deyə buyurdu. Useyd dedi: "Ya Rəsulullah, Yəhya atın yanında idi, mən də qorxdum ki, at onu tapdalayar. Odur ki, oxumağı dayandırıb ona tərəf getdim. Başımı qaldırıb göyə baxanda buluda oxşar bir şey gördüm. Onun içərisində qəndillərə[3] bənzər şeylər var idi. Sonra onlar yox oldular". Peyğəmbər ﷺ dedi: **"Bilirsən onlar nə idi?"** Useyd: "Xeyr!"– deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: **"Onlar mələklər idi, sənin səsinə qulaq *asmaq üçün* yaxınlaşmışdılar. Əgər sən oxumağına davam etsəydin, səhər insanlar onları görər və onlar insanlardan gizlənməzdilər".**[4]

---

[1] "əl-Bəyyinə" surəsi.
[2] "Səhih əl-Buxari", 3809; "Səhih Muslim", 799.
[3] Qəndil: asma çıraq.
[4] "Səhih əl-Buxari", 5018.

## Qurani-Kərimin mərhələlərlə qorunub-saxlanılması:

**1-ci mərhələ, Quranın göydə qorunmasıdır.**

Quranda belə buyurulur: **"Həqiqətən, bu, ehtirama layiq Qurandır. O, qorunub saxlanılan bir kitabdadır".**[1] Bu ayədə "kitab" deyildikdə, lövhi-məhfuz qəsd edilir. Quranın lövhi-məhfuzda olması barədə digər ayədə belə buyurulur: **"Bəli, bu, şanlı Qurandır. O, lövhi-məhfuzdadır".**[2] Quranın bu ali məqamda qorunması üçün yalnız mələklərə o pak səhifələrə toxunmağa izin verilir. Bu xüsusda, Quranda belə xəbər verilir: **"*Bu Quran* kəramətli, yüksək və pak səhifələrdədir. *O səhifələr* elçilərin – möhtərəm və müti mələklərin əllərindədir".**[3]

**2-ci mərhələ, Quranın nazil olarkən qorunmasıdır.**

Bu xüsusda, Quranda belə xəbər verilir: "(Cinlər dedilər:) **"Biz səmaya qalxdıqda onun sərt gözətçilər və yandırıb-yaxan alovlarla dolu olduğunun şahidi olduq. Halbuki *daha öncə* biz *mələklərin söhbətinə* qulaq asmaq üçün göyün bəzi yerlərində oturardıq. Amma kim indi *onları* dinləmək istəsə, o, pusquda gözləyən yandırıb-yaxan alova rast gələr. Biz bilmirik, *bununla* yerdəkilərə pislik etmək qəsd edilmişdir, yoxsa Rəbbi onları doğru yola yönəltmək istəmişdir?"**[4]

**3-cü mərhələ, Quranın yer üzünə nazil olduqdan sonra qorunmasıdır.**

Uca Allah Quranı Yer üzündə Öz peyğəmbərinin ﷺ və onun davamçılarının vasitəsilə qoruyub saxlamışdır. Bu xüsusda, Quranda belə buyurulur: ***"Cəbrail Quranı sənə nazil etdik-***

---

[1] "əl-Vaqiə" surəsi, 77-88.

[2] "əl-Buruc" surəsi, 21-22.

[3] "Əbəsə" surəsi, 13-16.

[4] "əl-Cinn" surəsi, 8-10.

***də* onu tələm-tələsik yadda saxlamaq üçün dilini tərpətmə! Şübhəsiz ki, *sənin qəlbində* onun qərar tutması və *dilinlə* onun oxunması Bizə aiddir. Biz onu oxuduğumuz zaman sən onun oxunuşunu izlə. Sonra onu izah etmək də, sözsüz ki, Bizə aiddir".**[1] Digər ayədə də belə buyurulur: **"Biz sənə *Quranı* oxudacağıq və sən onu unutmayacaqsan".**[2]

Səhih hədislərdə xəbər verilir ki, Peyğəmbər ﷺ Quranı gecə namazlarında əzbərdən oxuyar[3], habelə hər ramazanda Cəbrail عليه السلام ilə birlikdə onu əvvəldən-axıradək təkrarlayardı.[4] Hər hansı bir surə və ya ayə nazil olduqda onu səhabələrinə öyrədər, sonra da onları bu ayələri bilməyənlərə öyrətməyə təşviq edib deyərdi: **"Ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir".**[5]

Bundan bizə aydın olur ki, Uca Allah Quranı Yer üzündə Peyğəmbər ﷺ və onun səhabələri vasitəsilə hər cür təhrifdən qorumuşdur. Quranı Yer üzündə qoruyan əsas amillərdən biri, onun ecazkar nizamlı üslübda olmasıdır. Odur ki, bütün insanlar bir yerə toplaşsalar belə, Qurandakı bir surənin, hətta bir ayənin bənzərini ortaya qoymaqda aciz qalarlar. Bu xüsusda, Quranda bunlar buyurulur:

**«De: "İnsanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün *bir yerə* toplaşıb bir-birinə kömək etsələr belə, ona bənzərini gətirə bilməzlər"».**[6]

---

[1] "əl-Qiyamə" surəsi, 16-19.
[2] "əl-Əla" surəsi, 6.
[3] Bax: "Səhih əl-Buxari", 1130, 1135 və 1147.
[4] Bax: "Səhih əl-Buxari", 6.
[5] "Səhih əl-Buxari", 5027.
[6] "əl-İsra" surəsi, 88.

**«Yoxsa: "*Muhəmməd* onu özündən uydurub?!"– deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər uydurulmuş on surə də siz gətirin və Allahdan başqa kimi bacarırsınızsa, *köməyə* çağırın!"»**[1]

**«"Yoxsa: "*Muhəmməd* onu özündən uydurub?!"– deyirlər. De: "Əgər doğru deyirsinizsə, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa kimi bacarırsınızsa, *köməyə* çağırın!"»**[2]

Quranın davamlı olaraq dünyanın hər yerində müsəlmanlar tərəfindən əzbərlənməsi, namazlarda, ələlxüsus da gecə namazlarında oxunması, şəriətə aid araşdırma və hökmlərin Quran ayələri ilə əsaslandırılması onun hafizələrdə qorunması səbəbləridir.

**Qurani-Kərimin kitab halına salınmasının mərhələləri:**

**1-ci mərhələ** Quranın Peyğəmbərin ﷺ dövründə yazılmasıdır.

Ümumiyyətlə, Quranın yazı formada kitab olmasına dair Quranda və hədislərdə neçə-neçə dəlillər vardır. Məsələn:

**"Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır".**[3]

**"*Bu dəlil* pak səhifələri oxuyan, Allahın göndərdiyi rəsuldur. O səhifələrin içində doğru yazılar var".**[4]

Səhih hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ Quranı düşmən ölkəsinə aparmağı qadağan etmişdir.[5]

---

[1] "Hud" surəsi, 13.
[2] "Yunus" surəsi, 38.
[3] "əl-Bəqərə" surəsi, 2.
[4] "əl-Bəyyinə" surəsi, 2-3.
[5] "Səhih əl-Buxari", 2990.

Başqa bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: **“Məndən eşitdikləriniz içində Qurandan başqa heç nə yazmayın! Kim Quranla yanaşı başqa bir şey yazmışdırsa, qoy yazdıqlarını silsin”.**[1]

Qeyd edək ki, bu əmr İslamın əvvəlində olmuşdur. Peyğəmbərin ﷺ belə deməsinin səbəbi də o idi ki, Qurana başqa kəlam qarışmasın. Ancaq bu heç də o demək deyil ki, Peyğəmbər ﷺ səhabələrinə onun hədislərini öyrənib yadda saxlamağı qadağan etmişdir. Əksinə, hədisləri təbliğ edənləri tərif edib demişdir: **“Allah mənim hədisimi eşidib yadında saxlayan və onu eşitdiyi kimi başqalarına çatdıran kimsənin üzünü nurlu edər”.**[2] O səhabələrinə həm də belə buyurmuşdur: **“Qoy, sizlərdən hədislərimi eşidənlər, onları eşitməyən kimsələrə danışsınlar”.**[3]

Daha sonra Peyğəmbər ﷺ səhabələrinə hədisləri də yazmağa izin vermişdir. Rəvayət edilir ki, Abdullah ibn Amr ﵄ demişdir: “Mən Rəsulullahdan ﷺ eşitdiyim hər sözü yazırdım ki, onları əzbərləyim. Qureyşlilər mənə etirazlarını bildirib dedilər: “Sən Rəsulullahdan ﷺ eşitdiyin hər sözü yazırsan?! Axı o həm qəzəbli, həm də razı olduğu halda sözlər danışır”. Bundan sonra mən yazmağı dayandırdım və bunu Peyğəmbərə ﷺ bildirdim. Onda Peyğəmbər ﷺ barmağı ilə ağzına işarə edərək belə buyurdu: **“Yaz! Canım Əlində olan Allaha and olsun ki, buradan ancaq haqq söz çıxır”.**[4]

---

[1] “Səhih Muslim”, 3004.

[2] “Sunən ət-Tirmizi”, 2658; “Musnəd İmam Əhməd”, 3/225.

[3] “Səhih əl-Buxari”, 67; “Səhih Muslim”, 1679.

[4] “Sunən Əbu Davud”, 3646; “Musnəd İmam Əhməd”, 2/162; “Silsilə əl-Əhadis əs-Səhihə”, 1532.

Quranın yazı halına salınmasına işarət edən dəlillərdən biri də Bəra ibn Azibin ﷺ rəvayət etdiyi hədisdir. O demişdir: **“Möminlərdən *evdə* oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar”** ayəsi[1] nazil olduqda Peyğəmbər ﷺ Zeyd ibn Sabiti çağırıb bu ayəni ona yazdırdı. Elə bu vaxt İbn Ummu Məktum gəlib Peyğəmbərə ﷺ gözlərinin görməməsi səbəbindən döyüşməyə qadir olmadığı haqda şikayət etdi. Onda uca Allah: **“üzürlülər istisna olmaqla”** kəlməsini nazil etdi, yəni ayə bu şəkildə oldu: **“Möminlərdən, – üzürlülər istisna olmaqla, – *evdə* oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar”.**[2]

Yenə bir rəvayətdə xəbər verilir ki, Osman ibn Affan ﷺ demişdir: “Surələr Peyğəmbərə ﷺ hissə-hissə nazil edilirdi. Bəzən ona vəhy nazil edildikdən sonra o, vəhy katiblərini çağırıb deyərdi: **“Bu ayələri filan surədəki filan-filan ayələrin yanına yazın”.**[3]

Peyğəmbərimizin ﷺ dövründə Quranı yazan məşhur səhabələr bunlardır: Əbu Bəkr əs-Siddiq, Ömər ibn əl-Xəttab, Osman ibn Affan, Əli ibn Əbu Talib, Abdullah ibn Məsud, Əbu Zeyd, Zeyd ibn Sabit, Ubey ibn Kəb, Muaviyə ibn Əbu Sufyan, Zubeyr ibn əl-Avvam, Sabit ibn Qeys ibn Şəmmas, Muğira ibn Şöbə, Muaz ibn Cəbəl, Hənzalə ibn ər-Rabi əl-Əsədi, Abdullah ibn Rəvahə, Şərəhbil ibn Həsənə, Muayqib ibn Əbu Fatimə, Abdullah ibn əl-Ərqam əz-Zuhri, Xalid ibn Səid ibn əl-As, Əbban və digərləri – Allah onların hamısından razı olsun!

---

[1] “ən-Nisa” surəsi, 95-96.

[2] “Səhih əl-Buxari”, 2831, 2832.

[3] Yəni ondan əvvəl və ya sonra. “Musnəd İmam Əhməd”, 1/57; “Sunən Əbu Davud”, 786; “Sunən ən-Nəsai”, 8007; “Sunən ət-Tirmizi”, 3086.

Peyğəmbər ﷺ hələ həyatda ikən onun göstərişi ilə katiblər Quranı səhifələrə yazmış, sonra da yazdıqları hər bir ayəni ona oxumuşlar. Həmin dövrdə Quranı kitab halına salmağa ehtiyac olmadığından, başqa cür desək, müsəlmanlar arasında Quran hafizləri çox olduğundan, üstəlik, onun qiraəti[1] xüsusunda müsəlmanlar arasında fikir ayrılığı olmadığından hər hansı bir ixtilaf baş verməmişdir. Rəvayət edilir ki, Zeyd ibn Sabit رضي الله عنه demişdir: “Peyğəmbər ﷺ vəfat etdiyi zaman Quran kitab halına salınmamışdı”.[2]

**2-ci mərhələ** Quranın yazıldığı səhifələrin Əbu Bəkrin رضي الله عنه xilafəti dövründə cəm edilməsidir.

Bunun səbəbi həmin vaxt kafirlərə qarşı olan döyüşlərdə, xüsusilə də Yəmamə döyüşündə qarilərin[3] çoxunun şəhid olması idi. Təbii ki, Əbu Bəkr رضي الله عنه də böyük səhabələrlə məşvərətdən sonra bu məsuliyyətli işə razılıq vermişdir. Yəmamə döyüşündə qarilərin çoxunun şəhid olduğunu görən Ömər رضي الله عنه Quranın kitab halına salınmasını Əbu Bəkrə رضي الله عنه təklif etmiş, o da bir müddət götür-qoy etdikdən sonra buna razılıq vermiş və Quran səhifələrini bir yerə toplamağı Peyğəmbərin رضي الله عنه zamanında Quran katiblərindən olmuş Zeyd ibn Sabitə رضي الله عنه tapşırmışdır. Zeyd ibn Sabit رضي الله عنه bu səhifələri bir yerə toplamış və hər bir ayəni ən azı iki səhabənin hafizəsində olanlarla tutuşduraraq dəqiqləşdirmişdir. Zeyd ibn Sabitin رضي الله عنه bütün ayələri bir yerə toplaması və bu yazılarda olan ayələri qarilərin hafizəsində olanlarla dəqiqləşdirməsi düz on beş ay davam etmişdir. Bununla da, Qurani Kərim Əbu Bəkrin رضي الله عنه sağlığında ikən bir

---

[1] Qiraət: müəyyən üsul və qayda ilə oxuma.

[2] Suyuti, “əl-İtqan”, 1/164.

[3] Qari: Quranı əzbər bilən hafiz.

yerə cəm edilmişdir. Qurani-Kərimin yazıldığı səhifələr bir yerə cəm edildikdən sonra Əbu Bəkr رضي الله عنه bu yazılı səhifələri "mushaf" adlandırır. "Mushaf" səhifələrin məcmusu deməkdir. Bu mushaf əvvəlcə Əbu Bəkrin رضي الله عنه evində, onun vəfatından sonra isə Ömər ibn əl-Xəttabın رضي الله عنه evində qorunmuşdur.[1] Əli ibn Əbu Talib رضي الله عنه Əbu Bəkrin رضي الله عنه bu əməlini tərifləyərək demişdir: "Allah Əbu Bəkrə rəhmət etsin! O, Quranı kitab halına salanların birincisidir".[2]

**3-cü mərhələ** Osman ibn Affanın رضي الله عنه xilafəti dövründə Qurandan bir neçə nüsxə kitab hazırlanmasıdır. Bunun səbəbi o dövrdə Quranın qiraəti xüsusunda bəzi müsəlmanlar arasına düşmüş ixtilaf olmuşdur. Belə ki, Huzeyfə ibn əl-Yəman رضي الله عنه bu haqda Osmana رضي الله عنه xəbər vermiş, o da səhabələrlə məşvərət etdikdən sonra həmin mushafdan bir neçə nüsxə hazırlamışdır.

Bununla da Əbu Bəkrin رضي الله عنه dövründə cəm edilmiş mushaf hicrətin 24-cü ilində, başda Osman, Zeyd ibn Sabit, Ubey ibn Kəb və digər məşhur səhabələr kimi on iki səhabənin iştirakı ilə mushaf halına salınmış, daha sonra bu mushafdan bir neçə nüsxə hazırlanıb xilafətin müxtəlif guşələrinə göndərilmişdir.

Bəzi tarixçilər bu nüsxələrin sayının beş olduğunu rəvayət etmişlər. Xəlifə Osman ibn Affan رضي الله عنه bu nüsxələrdən birini Kufəyə, birini Bəsrəyə, birini Şama göndərmiş, birini Mədinə əhalisinə vermiş, birini də özündə saxlamışdır. Bəzi rəvayətlərdə bu nüsxələrin daha çox olduğu və bunların Məkkəyə, Yəmənə, Bəhreynə və Misirə də göndərildiyi xəbər verilmişdir. Lakin daha məşhur olan rəvayət onların sayının beş ədəd olmasıdır.

---

[1] "Səhih əl-Buxari", 4986.

[2] "Musənnəf İbn Əbi Şeybə", 10/544.

Qeyd edək ki, Osman ibn Affan رضي الله عنه bu nüsxələri o məmləkətlərə göndərdikdə, oradakı müsəlmanların yanına onlara Quranı düzgün oxumağı öyrədən qarilər də göndərmişdir: Abdullah ibn əs-Saibi رضي الله عنه Məkkəyə, Muğira ibn Şihabı رضي الله عنه Şama, Əbu Abdurrəhman əs-Suləmini رضي الله عنه Kufəyə, Amir ibn Qeysi رضي الله عنه də Bəsrəyə. Xəlifə Osmanın رضي الله عنه dövründə yazılmış mushaflardakı ərəb hərflərinin üzərində nə hərəkələr, nə də nöqtələr yox imiş.

**4-cü mərhələ** Əli ibn Əbu Talibin رضي الله عنه xilafəti dövründə onun göstərişi ilə Qurandakı hərflərin üzərinə nöqtələrin qoyulmasıdır. Lakin bu nöqtələr hərflərin nöqtələri deyil, sadəcə hərflərin hərəkəsini, yəni fəthəni, kəsrəni və damməni[1] bildirən işarələr olmuşdur.

**5-ci mərhələ** isə Abdulməlik ibn Mərvanın dövründə hərflərin üzərinə həm nöqtələrin, həm də hərəkələrin, yəni fəthə, kəsrə və damməni bildirən işarələrin qoyulmasıdır. Qara rənglə hərflərin nöqtələri, qırmızı rənglə də hərəkələri göstərən nöqtələr qoyulmuşdur.

Bu vaxta qədər mushafı qoruyan İslam ümməti bundan sonra da müqəddəs kitabı göz bəbəyi kimi qoruyub saxlamış, bacardıqları qədər bu kitaba xidmət göstərmişdir.

Uca Allahdan istəyimiz budur ki, bizə bu mübarək Kitabı sevməyi, onu oxuyub öyrənməyi və onu başqalarına öyrətməyi, üstəlik, edəcəyimiz bu əməli yalnız Allahın rizasını qazanmaq xatirinə etməyi, Axirətdə də bunun müqabilində veriləcək böyük mükafata nail olmağı nəsib etsin![2]

---

[1] Fəthə "ə", kəsrə "i", dammə isə "u" saitlərini ifadə edən hərəkələrdir.

[2] "Cəm əl-Quran fi Mərahil ət-Tarixiyyə", 4-136.

# Qurani-Kərimin fəziləti

Muhəmməd peyğəmbərdən ﷺ əvvəl göndərilmiş peyğəmbərlərdən عليهم السلام hər birinin peyğəmbərliyini sübut edən dəlilləri yalnız onlarla eyni dövrdə yaşamış insanlar görmüş və bu dəlillər onlardan bir qisminin Allaha iman gətirməsinə səbəb olmuşdur. Lakin onlardan sonra gələn nəsilləri o möcüzələrə inandırmaq çətin olmuşdur. Muhəmməd peyğəmbərin ﷺ ən böyük dəlili isə Qiyamət gününədək qalacaq Qurandır. Uca Allah bu mübarək Kitabı Cəbrail mələyin عليه السلام vasitəsilə Muhəmməd peyğəmbərə ﷺ nazil etmiş, insanlara və cinlərə də bu Kitaba iman gətirməyi əmr etmişdir. Quranın nə dərəcədə fəzilətli bir Kitab olduğunu ən doğru şəkildə ayə və hədislər əks etdirir. Uca Allah buyurur:

**"Həqiqətən, bu *Quran, haqqı batildən* ayırd edən bir kəlamdır".**[1]

**"Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır".**[2]

**«De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün *bir yerə* toplaşıb bir-birinə kömək etsələr belə, ona bənzərini gətirə bilməzlər"».**[3]

**"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik".**[4]

**"Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır".**[5]

---

[1] "ət-Tariq" surəsi, 13.
[2] "əl-Bəqərə" surəsi, 2.
[3] "əl-İsra" surəsi, 88.
[4] "əl-Maidə" surəsi, 48.
[5] "əl-Ənam" surəsi, 155.

**“Şübhəsiz ki, Zikri[1] Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq”.[2]**

**“Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik”.[3]**

Rəsulullah ﷺ demişdir:

**“Peyğəmbərlər arasında elə bir peyğəmbər yoxdur ki, ona bəşəriyyətin inandığı dəlillərdən** ***bir və ya daha çoxu*** **verilmiş olmasın.** ***Dəlil olaraq*** **mənə verilmiş şey isə Allahın mənə vəhy etdiyi** ***Qurandır*****. Odur ki, Qiyamət günü mənim ardıcıllarımın onların ardıcıllarının hamısından çox olacağına ümid edirəm”.[4]**

**“Quran oxuyun! Çünki o Qiyamət günü gəlib ona mənsub olanların** (onu oxuyub ona əməl edənlərin) **tərəfini saxlayacaq. Çiçəklənən iki surəni – “əl-Bəqərə” və “Ali İmran” surələrini oxuyun! Çünki onlar Qiyamət günü iki bulud və ya cərgələrə düzülmüş iki qatar quş kimi gəlib ona mənsub olanların tərəfini saxlayacaq. “əl-Bəqərə” surəsini oxuyun! Çünki onda xeyir-bərəkət, onsuz qalmaqda isə peşmanlıq vardır; həm də sehrbazlar onunla bacara bilməzlər”.[5]**

**“Quranı öyrənin!** ***Bu Kitabı*** **öyrəndikdən sonra isə onda ifrata varmayın, ona laqeyd yanaşmayın, onun sayəsində pul qazanmayın, onun sayəsində mal-dövlətinizi artırmayın!”[6]**

---

[1] “Zikr”, Quranın adlarından biridir.

[2] “əl-Hicr” surəsi, 9.

[3] “ən-Nəhl” surəsi, 89.

[4] “Səhih Muslim”, 385.

[5] “Səhih Muslim”, 1910.

[6] “Sunən ən-Nəsai”, 990; “Silsilə əl-Əhadis əs-Səhihə”, 3057.

**“Ağsaqqal müsəlmana sayğı göstərmək, habelə Quranı ifrata varmadan və ona laqeyd yanaşmadan daşıyana[1] hörmət qoymaq, bir də ədalətli ixtiyar sahibinin hörmətini saxlamaq Allahı uca tutmaq deməkdir”.[2]**

**“Allahın Kitabını öyrənin, içində buyurulanlara əməl edin və onu avazla oxuyun! Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, bu Quran *öz sahibini* ipindən açılmış və öz sahibindən qaçmış dəvədən daha tez tərk edər”.[3]**

**“Birinizin: “Filan və filan ayəni unutmuşam”– deməsi necə də pisdir! Əksinə, bu ona unutdurulmuşdur. Elə isə, Quranı *təkrar-təkrar* öyrənməyə davam edin. Çünki Quran insanların qəlbini kəndirdən qopub qaçan heyvandan da tez tərk edir”.[4]**

**“Quranı daim oxuyun! Canım Əlində olan Allaha and olsun ki, o, sahibini kəndirdən açılıb qaçan dəvədən daha tez tərk edir”.[5]**

**“Quranı əzbərdən bilən insan dəvələrini buxovda saxlayan kimsəyə bənzəyir. Əgər bu adam onları bu vəziyyətdə saxlasa, onları daim özündə saxlamış olar, yox, əgər başlı-başına buraxsa, onlar qaçıb gedərlər”.[6]**

---

[1] Burada “Quranı daşıyan” deyildikdə, onu əzbərləyən və düzgün qaydada oxuyan, habelə mənasını başa düşən və öyrəndiklərinə əməl edən qarilər nəzərdə tutulur.

[2] “Sunən Əbu Davud”, 4834; “Səhih əl-Cami”, 2199.

[3] “Musnəd İmam Əhməd”, 4/150; “Silsilə əl-Əhadis əs-Səhihə”, 3285.

[4] “Səhih əl-Buxari”, 5032.

[5] “Səhih əl-Buxari”, 5033.

[6] “Səhih əl-Buxari”, 5031.

**“Mən sizə iki ağır şey qoyub gedirəm. Onlardan biri Allahın Kitabıdır. O, Allahın ipidir – kim ondan möhkəm tutarsa, doğru yola yönələr, kim də onu buraxarsa, zəlalətə düşər”.**[1]

**“Bu Quran, bir ipdir. Onun bir ucu Allahın Əlində, digər ucu isə sizin əlinizdədir. Elə isə ondan möhkəm tutun! Siz ondan möhkəm tutduqca, əsla zəlalətə düşməz və heç vaxt həlak olmazsınız!”**[2]

**“*Hər hansı* bir camaat Allahın evlərindən birində yığışıb Allahın Kitabını oxusa və onu bir-birinə öyrətsə, onların üzərinə sükunət nazil olar, rəhmət onları bürüyər, mələklər öz qanadları ilə onları əhatəyə alar və Allah onları Öz yanındakıların arasında yad edər”.**[3]

**“Quran sənin ya lehinə, ya da əleyhinə bir hüccətdir[4]”.**[5]

**“Allah bu Kitab sayəsində insanların bir qismini ucaldır, digərlərini isə alçaldır”.**[6]

**“Qiyamət günü Quran gəlib *onu oxuyan adam üçün*: “Ey Rəbbim, ona bəzək ver!”– deyəcək və dərhal həmin adamın başına kəramət tacı qoyulacaq. Sonra o: “Ey Rəbbim, onun bəzəyini artır!”– deyəcək. Onda həmin adama kəramət əbası geyindiriləcək. Sonra o: “Ey Rəbbim, ondan razı qal!”– deyəcək**

---

[1] “Səhih Muslim”, 2408.

[2] “Səhih ibn Hibban”, 122; “Silsilə əl-Əhadis əs-Səhihə”, 713.

[3] “Səhih Muslim”, 8/71.

[4] “Əgər mömin adam Quranın buyurduqlarına əməl edib, qadağan etdikdiklərindən çəkinərsə, həmin bəndə qəbirdə sorğu-suala çəkilərkən, Məhşər günü haqq-ədalət tərəziləri qoyularkən və Allahın hüzuruna gətirilərkən, Quran onun lehinə, əks halda isə əleyhinə şahidlik edər”. (“Şərh ən-Nəvəvi”).

[5] “Səhih Muslim”, 223.

[6] “Səhih Muslim”, 1934.

**və Rəbbi ondan razı qalacaq. Sonra ona belə buyurulacaq: "Oxu, yüksəl! Hər bir ayəyə görə sənin gözəlliyin artacaqdır".[1]**

**"Quran oxuyan və onu əzbərdən bilən adam möhtərəm və müti mələklərlə eyni dərəcədədir. Çətinlik çəkə-çəkə daim Quran oxuyan adam isə iki savab qazanır".[2]**

**"Quran oxuyan və ona əməl edən mömin turunca[3] bənzəyir – onun dadı da xoşdur, iyi də. Quran oxumayan, amma ona əməl edən mömin xurmaya bənzəyir – onun dadı gözəldir, amma iyisi yoxdur. Quran oxuyan münafiqin məsəli reyhan bitkisinə bənzəyir – iyi gözəl olsa da, dadı acıdır. Quran oxumayan münafiqin məsəli isə acı qovuna bənzəyir – iyi də xoşagəlməzdir, dadı da acıdır".[4]**

**"Kim Allahın Kitabından bir hərf oxuyarsa, buna görə savab qazanar və bu savab onqat olar. Mən demirəm ki, "əlif, ləm, mim" bir hərfdir. Lakin "əlif" bir hərf, "ləm" bir hərf, "mim" də bir hərfdir".[5]**

**"Niyə sizlərdən biri məscidə gedib Allahın Kitabından iki ayə öyrənmir və ya iki ayə oxumur ki, bu onun üçün iki dəvədən[6] daha xeyirli olsun. Üç *ayə* onun üçün üç *dəvədən*, dörd *ayə* də onun üçün dörd *dəvədən* daha xeyirlidir. Bunların sayını artırdıqca, savabı da artmış olar".[7]**

**"Qiyamət günü Quran sahibinə belə buyurulacaq: "Oxu, yüksəl, dünyada oxuduğun kimi avazla oxu! Sənin**

---

1 "Sunən ət-Tirmizi", 2915; "Səhih əl-Cami", 8030.

2 "Səhih əl-Buxari", 4937; "Səhih Muslim", 797.

3 Xoş ətirli sitrus meyvəsi.

4 "Səhih əl-Buxari", 5059.

5 "Sunən ət-Tirmizi", 2910; "Səhih əl-Cami", 6469.

6 Yəni iki dəvə sədəqə verməkdən.

7 "Səhih Muslim", 2/197.

**mənzilin dünyada ikən oxuduğun son ayənin yanında olacaq".**[1]

**"Ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir".**[2]

**"Quran *Qiyamət günü* həm havadarlığı qəbul olunan şəfaətçi, həm də çatdırdığı xəbərləri təsdiqlənən xəbərçidir. Kim onu önünə alarsa, o onu Cənnətə aparar. Kim də onu arxasına atarsa, o onu Cəhənnəmə sürükləyər".**[3]

**"Əgər bu Quran dəriyə yazılıb oda atılsa, yanmaz**[4]**".**[5]

**"Kim bir gecədə yüz ayə oxuyarsa, ona gecə namazının savabı *qədər savab* yazılar".**[6]

**"Hər kim gecə namazında on ayə oxuyarsa, qafillərdən sayılmaz, yüz ayə oxuyarsa, itaətkarlardan hesab olunar və nəhayət, min ayə oxuyarsa, olduqca çoxlu savab qazanar".**[7]

---

[1] "Sunən Əbu Davud", 1464.

Muhəmməd Nasirəddin əl-Albani ﷺ "Silsilə əl-Əhadis əs-Səhihə" əsərində bu hədisin "səhih" olduğunu bildirmiş (2240), sonra demişdir: "Bil ki, bu hədisdə: "Quran sahibi" deyildikdə, onu əzbər bilən hafizlər nəzərdə tutulur" (5/284). Başqa bir hədisdə Rəsulullah ﷺ demişdir: **"Qoy, Quranı ən yaxşı oxuyanınız namazda camaata imamlıq etsin..."**, yəni Qurandan əzbərdən ən çox biləniniz. Həmçinin, Cənnətdə olan dərəcələr arasındakı üstünlük onun Qurandan daha çox oxuduğuna görə deyil, məhz dünyada əzbər bildiyi ayələrin çoxluğuna görə olacaq. Bu hədis hafizlərin fəzilətinə dəlalət edir. Lakin bir şərtlə ki, onun hafizliyi dünya malı, dinar və dirhəm üçün deyil, ixlasla, Allah rizası üçün olsun. Əks halda, Rəsulullahın ﷺ bu sözü ona aid edilər: "Ümmətim arasındakı münafiqlərin çoxu qarilər olacaq". (Bax: Silsilətul-Əhadisis-Səhihə, 750).

[2] "Səhih əl-Buxari", 5027.

[3] "Səhih İbn Hibban", 1793; "Silsilə əl-Əhadis əs-Səhihə", 2019.

[4] Burada "yanmaz" deyildikdə, Quranın ilahi qorunması qəsd edilir.

[5] "Sunən əd-Darimi", 2/430; "Silsilə əl-Əhadis əs-Səhihə", 3562.

[6] "Musnəd İmam Əhməd", 4/103; "Səhih əl-Cami", 6468.

[7] "Sunən Əbu Davud", 1/221; "Səhih İbn Xuzeymə", 1/125; "Silsilə əl-əl-Əhadis əs-Səhihə", 642.

**“Yalnız iki şəxsə həsəd aparmaq olar: o şəxsə ki, Allah ona Quranı öyrətmiş, o da onu gecə-gündüz oxuyur. Qonşusu da bunu eşidib deyər: “Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim”. Bir də o şəxsə ki, Allah ona var-dövlət bəxş etmiş, o da onu Allah yolunda lazımi yerlərə xərcləyir. Onu görən adam da deyər: “Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim”.**[1]

Rəvayət edilir ki, Əbu Səid əl-Xudri رضي الله عنه Peyğəmbərin ﷺ yanına gəlib: “Mənə nəsihət et, *ya Rəsulullah*!”– dedi. Peyğəmbər ﷺ belə buyurdu: **“Sənə Allahdan qorxmağı tövsiyə edirəm, çünki bu, hər bir xeyirin başıdır. Həmçinin sənə *Allah yolunda* vuruşmağı tövsiyə edirəm, çünki bu, İslamdakı abidlikdir. Sənə həm də Allahı zikr etməyi və Quran oxumağı tövsiyə edirəm, çünki bu, göydə sənin üçün bir rahatlıq, yerdə də adının təriflə zikr olunması üçün bir səbəbdir”.**[2]

Əbu Hureyra رضي الله عنه demişdir: “*Bir dəfə* Rəsulullah ﷺ *bizdən*: **“İstəmirsiniz ki, sizlərdən birinin iri, kök və qarnında balası olan üç dəvəsi olsun?!”**– deyə soruşdu. Biz: “İstəyirik”– deyə cavab verdikdə, Rəsulullah ﷺ buyurdu: **“Birinizin namazda üç ayə oxuması onun üçün iri, kök və qarnında balası olan üç dəvədən daha xeyirlidir”.**[3]

Cabir ibn Abdullah رضي الله عنهما demişdir: “Rəsulullah ﷺ Uhud döyüşündə şəhid olanları dəfn edərkən iki səhabəni bir qəbirə qoyarkən: **“Onlardan hansı biri Qurandan daha çox surə bilir?”**– deyə soruşardı. Ona Quranı daha çox bilən göstərildikdə, qəbirə əvvəlcə onu, sonra da digərini qoyardı”.[4]

---

[1] “Səhih əl-Buxari”, 5026.
[2] “Musnəd İmam Əhməd”, 3/82; “Silsilə əl-Əhadis əs-Səhihə”, 555.
[3] “Səhih Muslim”, 1908.
[4] “Səhih əl-Buxari”, 1282; “Səhih Muslim”, 2296.

Rəvayət edilir ki, Abdullah ibn Amr رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ mənə: **"Quranı ayda bir dəfə xətm et"**– deyə buyurdu. Mən dedim: "*Ya Rəsulullah,* mənim *bundan da çox oxumağa* gücüm çatar". O: **"Elə isə, onu üç günə xətm et"**– buyurdu.[1]

Rəsulullah ﷺ demişdir: **"Hər kim Quranı üç gündən tez bir zamanda oxusa, onu başa düşməz".**[2]

Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ Quranı üç gündən tez xətm etməzdi".[3]

İbn Abbas رضي الله عنهما demişdir: "Cəbrail *Ramazan ayının hər gecəsi* Peyğəmbərin ﷺ yanına gələr, Peyğəmbər ﷺ də Quranı ona oxuyardı[4]".[5]

Rəvayət edilir ki, bir gün İmran ibn Husayn رضي الله عنه Quran oxuyan, sonra da *bunun əvəzində camaatdan yeməyə bir şey* istəyən bir adamın yanından keçdi və **"İnna lillahi və inna ileyhi raciun"** [6] deyə etirazını bildirdi. Sonra dedi: "Mən Allahın elçisinin ﷺ belə dediyini eşitmişəm: **"Qoy Quran oxuyan adam dilədiyini onun vasitəsilə Allahdan istəsin.**[7]

---

[1] "Səhih Əbu Davud", 1391; "Səhih Əbu Davud", 1258.

[2] "Musnəd İmam Əhməd", 2/164; "Sunən ət-Tirmizi", 2946; "Sifətu Salətin-Nəbi ﷺ", səh: 519-520.

[3] "Təbəqat İbn Səd", 1/376; "Səhih əl-Cami", 4866.

[4] Bundan belə nəticə çıxır ki, başqa aylardan fərqli olaraq Ramazan ayında Quranı daha çox oxumaq sünnədir. Hədisdən o da aydın olur ki, dürüst insanlarla oturub-durmaq, üstəlik, Quran oxumaq adamı xeyirxah işlər görməyə təşviq edir.

[5] "Səhih əl-Buxari", 1803; "Səhih Muslim", 2308.

[6] **"Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"** Bu sözlər təəccüb təəccüb doğuran bir şey gördükdə və ya hər hansı bir müsibət üz verdikdə deyilir. Əslində bu, "əl-Bəqərə" surəsinin 156-cı ayəsidir.

[7] Yəni Quran vasitəsilə Allahdan dünya və axirət nemətlərini diləmək. ("Tohfətul-Əhvəzi").

**Həqiqətən, *vaxt gələcək,* elə insanlar ortaya çıxacaq ki, onlar Quran oxuyacaq, sonra da buna görə insanlardan əvəz[1] istəyəcəklər".[2]**

**<u>Mövzu ilə bağlı bəzi səhabələrin nəsihətləri</u>**:

Ömər ibn əl-Xəttab ﷺ demişdir: "Quran oxuyanlar sizi aldatmasın – bu sadəcə onun oxuduğu bir kəlamdır. Siz ona əməl edənlərə diqqət yetirin".[3]

Osman ibn Affan ﷺ demişdir: "Əgər qəlbimiz təmiz olsa, Rəbbimizin kəlamını (Quranı) oxumaqdan doymarıq".[4]

Abdullah ibn Məsud ﷺ demişdir: "Şəfa verən iki şeydən – Qurandan və baldan istifadə edin".[5]

Xabbab ibn əl-Ərat ﷺ demişdir: "Bacardığın qədər Allaha yaxınlaş. Bil ki, Allaha yaxınlaşmaq üçün Onun kəlamından daha gözəl bir vasitə tapa bilməyəcəksən".[6]

Abdullah ibn Abbas ﷺ demişdir: "Quran oxuyan adam, ömrünün ən rəzil çağına yetişməz".[7]

---

[1] Əvəz: qarşılıq, mükafat, muzd, zəhmət haqqı.
[2] "Sunən ət-Tirmizi", 2917; "Silsilə əl-Əhadis əs-Səhihə", 257.
[3] "İqtidaul-İlmil-Amələ", 109.
[4] İmam Əhməd, "Zəvaid əz-Zuhd", səh.128.
[5] "Səhih İbn Macə", 2781.
[6] "Mustədrək əl-Hakim", 2/441.
[7] "Mustədrək əl-Hakim", 3952; "Səhih ət-Tərğib vət-Tərhib", 1435.

## Qurani-Kərimi oxumaq üçün ən fəzilətli vaxt

Möhtərəm müsəlmanlar! Gündəlik olaraq Quran oxumaq və ayələrin mənası barədə düşünmək mömin adama savab qazandıran əsas ibadətlərdən biri sayılır. Bilin ki, sadəcə dili tərpətməklə[1] belə çox böyük savab qazanmaq olar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Kim Allahın Kitabından bir hərf oxusa, buna görə savab qazanar və bu savab onqat olar. Mən demirəm ki, "əlif, ləm, mim" bir hərfdir. Lakin "əlif" bir hərf, "ləm" bir hərf, "mim" də bir hərfdir".**[2]

Əgər biz əlimizdəki Qurana baxsaq görərik ki, bu Kitabın hər səhifəsində on beş sətir və hər sətirdə təxminən qırx hərf vardır. Beləcə, bir səhifəyə görə qazanılmış minimum savab sayını saymaq üçün qırx hərfi on beş sətirə vurub, hər hərfi də on qatına vursaq, altı min savab edir. Üstəlik, əgər adam oxumağa yenicə başlayıbsa və çətinlik çəkirsə, bu halda onun savabı iki qat artırılır. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Quran oxuyan və onu əzbərdən bilən adam möhtərəm və müti mələklərlə eyni dərəcədədir. Çətinlik çəkə-çəkə daim Quran oxuyan adam isə iki savab qazanır".**[3]

Quranı oxuduqda mömin insanın imanı və təqvası artır, qəlbi rahatlıq tapır, üzünə nur gəlir, əməlləri islah olur, sonda isə cənnətlik olur. Bu xüsusda, Quranda bunlar buyurulur:

**"Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbləri qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar".**[4]

---

[1] Yəni, Quran oxumaq üçün nə madiyyət sərf etmək, nə də ki fiziki güc tətbiq etmək gərəkdir.

[2] "Sunən ət-Tirmizi", 2910; "Səhih əl-Cami", 6469.

[3] "Səhih əl-Buxari", 4937; "Səhih Muslim", 797.

[4] "əl-Ənfal" surəsi, 2.

**“Qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır”.**[1]

**“Biz Quranı qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün bir nur etdik.”**[2]

**“Həqiqətən, bu** ***Quran, haqqı batildən*** **ayırd edən bir kəlamdır”.**[3]

Məlumunuz olsun ki, Quran oxumaq Allahın buyurduğu əməllərdəndir. Uca Allah Öz peyğəmbərinə ﷺ belə deməyi buyurmuşdur: **“Mənə müsəlman olmaq və Quran oxumaq əmr edilib!”**[4] Ayədə hər bir müsəlmana Quran oxumaq buyurulur.

Bəs, hansı vaxt Quran oxumaq üçün ən fəzilətli sayılır? Qüdsi hədisdə[5] uca Allah belə buyurur: **“Qulumun Mənə**

---

[1] “ər-Rəd” surəsi, 28.

[2] “əş-Şura” surəsi, 52.

[3] “ət-Tariq”, surəsi, 13.

[4] “ən-Nəml”, surəsi, 91-92.

[5] “Qüdsi hədis” deyildikdə, mənası Allah tərəfindən nazil olmuş və Peyğəmbərin ﷺ dili ilə ifadə edilmiş kəlam qəsd edilir. Əgər qüdsi hədisin ləfzi Allah tərəfindən nazil olmuş olsaydı, Quranla onun arasında fərq olmazdı. Lakin məlumdur ki, Quranla qüdsi hədis arasında bir çox fərqlər var. O fərqlərin bəziləri bunlardır:

1-cisi, qüdsi hədis nə ibadət məqsədilə oxunur, nə də onu oxuyan adama oxuduğu hər bir hərfə görə on savab yazılır. Quran isə ibadət məqsədilə oxunur və onu oxuyan adama, oxuduğu hər bir hərfə görə on savab yazılır.

2-cisi, Uca Allah insanlardan Qurana bənzər bir kitab və ya onun ayələrindən birinə bənzər bir ayə gətirmələrini tələb etmiş, lakin qüdsi hədis barədə bunu tələb etməmişdir.

3-cüsü, Uca Allah Quranı qoruyacağına vəd vermişdir. Necə ki, “əl-Hicr” surəsinin 9-cu ayəsində buyurulur: **“Şübhəsiz ki, Quranı Biz nazil etdik, sözsüz ki, Biz də onu qoruyacağıq”.** Qüdsi hədislər arasında isə səhih və həsən, hətta zəif və qondarma isnadı olan mətnlər rəvayət edilmişdir. Bəzilərində həm də əlavələr və əksiltmələr də mövcuddur.

**sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir”.**[1]

Burada **“vacib buyurduğum əməllər”** deyildikdə ilk öncə tövhid, yəni Allahın *ibadətə layiq* tək ilah olduğuna və Muhəmməd peyğəmbərin ﷺ Onun rəsulu olduğuna şəhadət gətirmək, sonra namaz qılmaq, zəkat vermək, oruc tutmaq, həcc etmək və digər vacib buyurulanları yerinə yetirmək nəzərdə tutulur. Tövhid kəlməsindən sonra ən əzəmətli əməl namazdır. Quran oxumaq üçün ən fəzilətli vaxt elə namaz əsnasıdır.

İbn Teymiyyə رحمه الله bu mövzu haqda danışarkən demişdir: “Quranı namaz əsnasında oxumaq onu namazdan kənar oxumaqdan daha əfzəldir. Namaz əsnasında Quran oxuyan kimsənin qazandığı fayda namazdan xaric Quran oxuyan kimsənin qazandığından daha böyükdür. Çünki Peyğəmbər ﷺ: **“Namaz qılarkən Quranın anasını** (yəni “əl-Fatihə” surəsini) **oxumayan**

---

4-cüsü, müsəlmanların yekdil rəyinə görə, Quranı məna ilə rəvayət etmək olmaz, qüdsi hədisləri isə əksər alimlərin rəyinə əsasən, məna ilə rəvayət etmək icazəlidir.

5-cisi, İslam şəriəti namazda Qurandan asan olanı oxumağı buyurmuş, hətta “əl-Fatihə” surəsini oxumadan qılınan namazın səhih olmadığını vurğulamışdır. Qüdsi hədisləri isə namazda oxumağı buyurmamışdır.

6-cısı, Qurana toxunarkən dəstəmazlı olmaq tövsiyə olunur, qüdsi hədislərə isə dəstəmazsız da toxunmaq caizdir.

7-cisi, daha doğru rəyə əsasən, cənabət halında olan adam Quran oxumamalıdır. Qüdsi hədisi isə cənabət halında oxumaq olar.

8-cisi, Quran, səhihliyinə şübhə olmayan mütəvatir isnadla rəvayət edilmişdir. Belə ki, onun bir hərfini belə inkar edən kəs kafir sayılır. Lakin qüdsi hədisin isnadının və ya mətninin zəif olduğunu iddia edən mühəddis kafir sayılmaz...”. (İbn Useymin, “Şərh əl-Ərbəin”, 24-cü hədisin şərhi).

[1] “Səhih əl-Buxari”, 6502.

**kimsənin namazı naqisdir, naqisdir, naqisdir"**[1]– buyurmuşdur. Hədisdə keçən "xidac" kəlməsi əslində "vaxtından əvvəl doğulmuş", "yarımçıq" deməkdir. Lakin burada bu söz "dəyərsiz", "qüsurlu", "nöqsanlı" mənasını ifadə edir. Yəni "əl-Fatihə"siz namaz naqisdir.

"əl-Fatihə" surəsinin namazdakı yeri ilə bağlı bir hədisdə Peyğəmbər ﷺ demişdir: «**Uca Allah buyurur: "Mən "əs-Səlatı"**[2] **Özümlə qulumun arasında iki qismə böldüm və qulum da dilədiyini alacaq". Qul: "Əlhəmdulillahi Rabbil aləmin"– dedikdə, Allah: "Qulum Məni həmd-səna ilə təqdis etdi"– buyurur. Qul: "ər-Rəhmanir-Rəhim"– dedikdə, Allah: "Qulum Məni təriflədi"– buyurur. Qul: "Maliki yovmiddin"– dedikdə, Allah: "Qulum Məni mədh etdi"** (və ya "Mənə arxayın oldu") **buyurur. Qul: "İyyakə nəbudu və iyyakə nəstəin"– dedikdə, Allah buyurur: "Bu, Mənimlə qulumun arasında iki hissəyə bölünür və o, dilədiyini alacaq". Qul: "İhdinəs-siratal-mustəqim, siratal-ləzinə ənamtə aleyhim, ğeyril-məğdubi aleyhim vələddallin!"– dedikdə, Allah buyurur: "Bu, quluma məxsusdur və o, dilədiyini alacaq"».**[3] Hər iki hədisi imam Muslim öz "Səhih"ində rəvayət etmişdir".[4]

Deyilənlərdən aydın olur ki, Quran oxumaq üçün ən fəzilətli vaxt, onu namaz qılarkən oxumağımızdır. Mömin adam

---

[1] "Səhih Muslim", 395.

[2] "əl-Fatihə" surəsini oxumadan qılınan namaz qəbul olunmadığı üçün bu surə həm də "əs-Səlat" (Namaz) adlandırılmışdır. Bu surənin "Ummul-Kitab" (Kitabın anası), "Səbul-Məsani" (Təkrarlanan yeddi ayə), "ər-Ruqya" (Ovsun) kimi adları da var.

[3] "Səhih Muslim", 395.

[4] İbn Teymiyyə, "Məcmu əl-Fətava", 23/282.

namazda Quran oxuduqda onun imanı artır, qəlbi rahatlıq tapır və gözləri yaşla dolur. Sonuncuya dair Quranda belə deyilir:

**“Həqiqətən, ondan əvvəl özlərinə elm verilmiş kimsələrə** ***Allahın ayələri*** **oxunduğu zaman üzüstə səcdəyə qapanır və: “Rəbbimiz pak və müqəddəsdir! Rəbbimizin vədi mütləq yerinə yetəcəkdir!”– deyirlər. Onlar üzüqoylu düşüb ağlayır və** ***bu ayələr*** **onların itaətini artırır”.**[1]

**“Onlar özlərinə Mərhəmətli Allahın ayələri oxunduğu zaman səcdəyə qapanıb ağlayarlar”.**[2]

Bu ayələrdən o da aydın olur ki, peyğəmbərlər عليهم السلام və onların davamçıları namaz qılarkən Allahın ayələrini oxuyar və səcdəyə qapanıb ağlayaraq Allaha dua edərdilər. Bu da əsl möminə xas olan xüsusiyyətlərdəndir.

---

[1] “əl-İsra” surəsi, 107-109.

[2] “Məryəm” surəsi, 58.

# Qurani-Kərimi oxuyub-ağlayanlar

Əvvəlki fəsildə qeyd etdik ki, möminlər namazda Allahın ayələrini oxuyar və ağlayaraq Ona dua edərdilər. Quranda uca Allah onları belə vəsf edir: **“Həqiqi möminlər o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbləri qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər, namaz qılar və Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyərlər. Məhz onlar həqiqi möminlərdir. Onlar üçün Rəbbi yanında dərəcələr, bağışlanma və bolluca ruzi vardır”.**[1] Səhabələr ﵃ və onların yolunu tutub gedənlər məhz belə möminlərdən olmuşlar. Uca Allah onları belə tərif etmişdir: ***“Dində*** **hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da** ***Allahdan*** **razıdırlar.** ***Allah*** **onlar üçün** ***ağacları və qəsrləri*** **altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur”.**[2]

O dövrdəki müsəlmanlarla indikiləri müqayisə etdikdə, hamımızı düşündürəcək bəzi suallar meydana gəlir:

*Niyə bu gün müsəlmanların bir çoxuna gündəlik olaraq Quran oxumaq nəsib olmur?*

*Niyə bəziləri Quran oxuduqda və ya onu dinlədikdə ondan təsirlənmir və qəlbləri yumşalmır?*

*Niyə onlara Allahı yad edib ağlamaq nəsib olmur?*

*Niyə onlar imanın şirinliyini dadmaq həsrətindədilər?*

*Niyə onlar Allahdan uzaqlaşdıqlarını hiss etmirlər?*

---

[1] “əl-Ənfal” surəsi, 2-4.

[2] “ət-Tövbə” surəsi, 100.

Bütün bu sıxıntıları aradan qaldırmaq istəyən hər bir müsəlman Peyğəmbərimizin ﷺ bu xüsusda İslam ümmətinə etdiyi tövsiyələrə diqqət yetirməlidir. Bu tövsiyələri aşağıdakı başlıqlara əsasən dörd qismə bölmək olar:

1) Allah qorxusundan ağlamağın fəziləti və bunun savabı;

2) Qəlbin sərtləşməsinin səbəbi;

3) Qəlbi yumşaltmağın yolları;

4) Allahı yad edib ağlayan möminlər.

**1)** Allah qorxusundan ağlamağın fəzilətinə dair Peyğəmbərdən ﷺ rəvayət edilmiş hədislərin bəziləri bunlardır:

1– **“Yeddi qisim insan vardır ki, Allah onları Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcək: ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc, qəlbi məscidlərə bağlı olan kişi, bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər, gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda: “Mən Allahdan qorxuram!”– deyən kişi, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam və xəlvətə çəkilib Allahı yad etdikdən sonra gözləri yaşla dolan kimsə”.**[1]

Deməli, Qiyamət günü günahkarlar Günəşin istisindən əziyyət çəkəndə, xəlvətə çəkilərək Quran oxuyub göz yaşı axıdan möminlər kölgə altında olacaqlar.

2– **“Allah üçün iki damladan və iki izdən daha əziz bir şey yoxdur. Damlalar Allah qorxusundan ağlayan mömінin göz yaşı və bir də Allah yolunda vuruşan mücahidin yarasından axan qan damlasıdır. İzlər isə, Allah yolunda vuruşan**

[1] “Səhih əl-Buxari”, 660.

**mücahidin aldığı yara izi və bir də Allahın buyurduğu əməli yerinə yetirən möminin bədənində qalan izdir".**[1]

Deməli, Allahı yad edib ağlamaq Allahın ən çox sevdiyi əməllərdəndir.

3– **"Heyvandan sağılmış süd onun yelininə[2] qayıtmadıqca, Allah qorxusundan ağlayan kəs Cəhənnəm oduna girməz".**[3]

Yəni, sağılmış südün yenidən yelinə qayıtması mümkün olmadığı kimi, Allah qorxusundan ağlayan möminin Cəhənnəmə düşməsi də mümkün deyil.

4– **"Dilini qoruyan, evinə çəkilib heç kəsə əziyyət verməyən və bir də günahlarını xatırlayıb ağlayan kimsəyə tubə[4] olsun!"**[5]

Deməli, Allah qorxusundan ağlayan hər bir mömin Cənnətlik olacaq.

5– Səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, nicat tapmaq üçün mən nə etməliyəm?" Peyğəmbər ﷺ buyurdu: **"Dilini qoru, evində otur, heç kəsə əziyyət vermə və bir də günahlarını xatırlayıb ağla".**[6]

Demək, Allahdan qorxub ağlayan mömin adam dünyada və axirətdə nicat tapacaq.

---

[1] "Sunən ət-Tirmizi", 1669; "Səhih ət-Tərğib vət-Tərhib", ١3٧٦.

[2] Yelin: məməli heyvanlarda süd yığılan (süd vəziləri və məmələri yerləşən) orqan.

[3] "Sunən ət-Tirmizi", 2311; "Sunən ən-Nəsai", 3108; "Musnəd İmam Əhməd", 2/505; "Səhih əl-Cami", 7778.

[4] Burada "tubə" deyildikdə Cənnət, yaxud Cənnətdəki "Tubə" ağacı və ya çoxlu savab və xeyir-bərəkət nəzərdə tutulur.

[5] Təbərani, "əl-Mocəm əl-Ovsat", 2340; "Səhih əl-Cami", 3929.

[6] "Sunən ət-Tirmizi", 2406; "Silsilə əl-Əhadis əs-Səhihə", 890.

**2)** Qəlbin sərtləşməsinin səbəbinə gəlincə, bu, günahların artmasındandır. Belə ki, günahlar artdıqca, qəlbin sərtliyi də artır. İnsan günah iş gördükdə qəlbinə qara nöqtə düşür. Əgər dərhal tövbə edib o qara nöqtəni qəlbindən silməsə və yenidən bir günah işlətsə, digər bir qara nöqtə qəlbinə düşür və beləcə, bu nöqtələr artdıqca qəlb daşlaşır və nəhayət, bu qara nöqtələr qəlbi tamamilə bürüyür. Bu xüsusda, Quranda belə buyurulur: **"Xeyr! Onların qəlbini qazandıqları *günahlar* bürümüşdür".**[1] Peyğəmbər ﷺ bu ayəni belə izah etmişdir: **"Mömin adam günah etdiyi zaman onun qəlbinə bir qara nöqtə düşər. Əgər tövbə edib o günahdan çəkinsə və Allahdan bağışlanma diləsə, qəlbi ağappaq olar. Yox, əgər günah etməyə davam edərsə, nöqtələrin sayı artar və axırda onlar qəlbi tam qapayar".**[2]

Demək, qəlbin sərtləşməsi axırda onun tamamilə möhürlənməsinə gətirib çıxardır.

**3)** İslam dini bizə sərtləşmiş qəlbi yumşaltmağın yollarını da öyrədib. Elə isə, hər bir müsəlman qəlbini sərtləşməkdən qorumaq üçün bu amillərdən möhkəm tutmalıdır:

**1– İxlaslı olmaq.**

Yəni Quranı yalnız Allah rizasını qazanmaq üçün oxumaq. Belə ki, Quran oxumaq özü bir ibadətdir, ibadəti isə Allahdan qeyrisinə yönəltmək olmaz. Bu xüsusda, Quranda belə buyurulur: **"Onlara, dini məhz Allaha məxsus edərək həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu".**[3]

---

[1] "əl-Mutaffifin" surəsi, 14.

[2] "Sunən ət-Tirmizi", 3334; "Səhih ət-Tərğib vət-Tərhib", 3141.

[3] "əl-Bəyyinə" surəsi, 5.

**2– Dua etmək.**

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ الثَّبَاتَ فِي الْأَمْرِ، وَالْعَزِيمَةَ عَلَى الرُّشْدِ، وَنَسْأَلُكَ مُوجِبَاتِ رَحْمَتِكَ، وَعَزَائِمَ مَغْفِرَتِكَ، وَنَسْأَلُكَ شُكْرَ نِعْمَتِكَ، وَحُسْنَ عِبَادَتِكَ، وَنَسْأَلُكَ قَلْباً سَلِيماً، وَلِسَاناً صَادِقاً، وَنَسْأَلُكَ مِنْ خَيْرِ مَا تَعْلَمُ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ مَا تَعْلَمُ، وَنَسْتَغْفِرُكَ لِمَا تَعْلَمُ، إِنَّكَ أَنْتَ عَلاَّمُ الْغُيُوبِ ))

**"Allahım, Səndən dində sabit qalmağımızı və doğruluğa can atmağımızı, Sənin rəhmətinə qovuşduran və məğfirətinə yetişdirən əməlləri yerinə yetirməyi, Sənin nemətlərinə şükür etməyi və Sənə gözəl şəkildə ibadət etməyi, habelə salamat qəlb və düzdanışan dil diləyirik. Bildiyin hər bir xeyiri Səndən diləyir, bildiyin hər bir şərdən Sənə sığınır və bildiyin günahlarımıza görə Səndən bağışlanma diləyirik. Heç şübhəsiz ki, Sən qeyblərdə olanları Bilənsən".[1]**

(( اللَّهُمَّ آتِ نَفْسِى تَقْوَاهَا وَزَكِّهَا أَنْتَ خَيْرُ مَنْ زَكَّاهَا أَنْتَ وَلِيُّهَا وَمَوْلاَهَا، اللَّهُمَّ إِنِّى أَعُوذُ بِكَ مِنْ عِلْمٍ لاَ يَنْفَعُ وَمِنْ قَلْبٍ لاَ يَخْشَعُ وَمِنْ نَفْسٍ لاَ تَشْبَعُ وَمِنْ دَعْوَةٍ لاَ يُسْتَجَابُ لَهَا ))

**"Allahım, nəfsimə təqva bəxş et və onu təmizə çıxart! Sən təmizə çıxaranların ən xeyirlisisən, Sən nəfsimin qəyyumu və hamisisən! Allahım, fayda verməyən elmdən, Səndən qorxmayan qəlbdən, doymayan nəfsdən və qəbul olmayan duadan Sənə sığınıram!"[2]**

---

[1] "Musnəd İmam Əhməd", 4/125; "Sunən ət-Tirmizi", 3407; "Silsilə əl-Əhadis əs-Səhihə", 3228.

[2] "Səhih Muslim", 6844.

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ خَشْيَتَكَ فِي الْغَيْبِ وَالشَّهَادَةِ ))

**“Allahım, gizlində də, aşkarda da, Səndən layiqincə qorxmağı diləyirəm!”**[1]

**3– Allahı və Onun Rəsulunu ﷺ hamıdan çox sevmək.**

Bu xüsusda, Peyğəmbər ﷺ belə demişdir: **“Kimdə bu üç xislət olsa, imanın şirinliyini dadmış olar: Allahı və Onun rəsulunu digərlərindən daha çox sevmək,**[2] **sevdiyi kimsəni yalnız Allah üçün sevmək və bir də Allah onu küfrdən xilas etdikdən sonra yenidən küfrə qayıtmağı, oda atılmağı xoşlamadığı kimi xoşlamamaq.”**[3]

**4– İslam şəriətini öyrənmək.**

Belə ki, mömin insanın elmi artdıqca təqvası da artar. Bu xüsusda, Quranda belə xəbər verilir: **“Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar.”**[4]

---

[1] “Sunən ən-Nəsai”, 1305; “Səhih əl-Cami”, 1301.

[2] “Səhih əl-Buxari”, 16. “Səhih Muslim”, 43.

[3] Yəni Allah və Onun rəsulu ona dünyada mövcud olan hər şeydən – canından, övladından, valideynindən, zövcəsindən və qeyrilərindən daha sevimli olarsa. (“əl-Qovl əl-Mufid”, 2/53).

Hədisdə “Allah və Onun rəsulu” deyilir, “Allah, sonra Onun rəsulu” deyilmir. Çünki Peyğəmbəri ﷺ sevmək pak və uca Allahı sevməyə bağlıdır. İnsanın Allaha olan sevgisi artdıqca, Peyğəmbərə ﷺ olan sevgisi də artacaq (“Şərh Riyad əs-Salihin”, 1/432). Belə ki, Allaha olan sevgi yalnız Peyğəmbəri ﷺ sevməklə və ona itaətlə təsdiq edilə bilər. Uca Allah buyurur: «**De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir”**» (“Ali-İmran” surəsi, 31).

[4] “Fatir” surəsi, 28.

**5– Ölümü yada salmaq.**

Peyğəmbər ﷺ müsəlmanlara bu xüsusda, belə buyurmuşdur: **"Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim. İndi də sizə qəbirləri ziyarət etməyi əmr edirəm. Çünki onları ziyarət etmək qəlbləri yumşaldır, gözləri yaşardır, Axirəti yada salır".**[1]

**6– Cəhənnəm əhlinin necə ağlayacaqlarını düşünmək.**

Bu xüsusda, Quranda belə buyurulur: **"Bədbəxtlərə gəlincə, onlar Cəhənnəm odunda qalacaqlar. Onlar orada zarıyacaq və bağıracaqlar".**[2]

Peyğəmbər ﷺ demişdir: **"Cəhənnəm əhli o qədər ağlayacaq ki, nəhayət, onların göz yaşı quruyacaq, sonra gözlərindən qan axacaq. Bu hal o qədər davam edəcək ki, onların üzlərində böyük yarğanlar əmələ gələcək. Elə yarğanlar ki, əgər ora gəmi buraxılsa, orada üzüb gedə bilər".**[3]

**7– Nəfsi hesaba çəkmək.**

Bu xüsusda, Quranda belə buyurulur: **"Ey iman gətirənlər, Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır".**[4]

**"Qiyamət günü Cəhənnəm gətiriləcək. O gün insan günahlarını xatırlayacaq, lakin bu xatırlamanın ona nə faydası?! O deyəcək: "Kaş, axirət həyatım üçün əvvəlcədən hazırlıq görəydim!"**[5]

---

[1] "Mustədrək əl-Hakim", 1/376; "Səhih əl-Cami", 4584.
[2] "Hud" surəsi, 106.
[3] "Sunən İbn Macə", 4324; "Səhih əl-Cami", 8083.
[4] "əl-Həşr" surəsi, 18.
[5] "əl-Fəcr" surəsi, 23-24.

**8– İbadətin qəbul edilməsinə arxayın olmamaq.**

Rəvayət edilir ki, Aişə ﷺ demişdir: “Mən Peyğəmbərdən ﷺ: “Ya Rəsulullah, *Quranda:* **“Rəbbinə qayıdacaqlar deyə, yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər”**[1]– deyildikdə zinakar, yaxud oğru və ya əyyaş olanlarmı qəsd edilir?”– deyə soruşdum. Peyğəmbər ﷺ dedi: **“Xeyr, ey Siddiqin qızı. Bunlar o kəslərdir ki, oruc tutur, namaz qılır, sədəqə verir, lakin əməllərinin qəbul olunmayacağından qorxurlar. Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər”.**[2]

**9. Çox gülməmək.**

Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **“Çox gülməyin! Çünki çox gülmək qəlbi öldürür”.**[3]

Başqa bir hədisdə rəvayət edilir ki, bir dəfə Rəsulullah ﷺ səhabələrinə: **“Əgər siz mən bildiyimi bilsəydiniz, az gülüb, çox ağlayardınız”**– dedi. Səhabələr bu sözü eşidən kimi, üzlərini tutub inilti ilə ağlamağa başladılar.[4]

Digər rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ: **“Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, mən gördüyümü görsəydiniz, əlbəttə ki, az gülüb çox ağlayardınız”**– demiş, səhabələr də: “Sən nə gördün, ya Rəsulullah?”– deyə soruşduqda, o demişdir: **“Cənnəti və Cəhənnəmi gördüm[5]”.**[6]

---

[1] “əl-Muminun” surəsi, 60.

[2] “Sunən ət-Tirmizi”, 2/201; “Silsilə əl-Əhadis əs-Səhihə”, 162.

[3] “Sunən İbn Macə”, 4193; “Silsilə əl-Əhadis əs-Səhihə”, 506.

[4] “Səhih əl-Buxari”, 1044; “əl-Ədəb əl-Mufrad”, 254.

[5] Peyğəmbərin ﷺ bu sözü Cənnət və Cəhənnəmin hal-hazırda mövcud olduğuna dəlalət edir.

[6] “Səhih Muslim”, 426.

**10– Quran oxumaq.**

Bu xüsusda, Quranda belə buyurulur: **"Əgər Biz bu Quranı dağa nazil etsəydik, sən onun Allahın qorxusundan boyun əyib parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, düşünələr".**[1]

**4)** Allahı yad edib ağlamaq məsələsində isə, əlbəttə ki, bu xüsusda Peyğəmbərimiz ﷺ bizim üçün ən gözəl nümunədir.

İbn Qeyyim رحمه الله Peyğəmbərin ﷺ ağlamağını vəsf edib demişdir: "Peyğəmbərin ﷺ ağlamağı da, gülməyi kimi olardı. Necə ki, gülərkən qəhqəhə çəkməz, eləcə də, ağlayarkən zar-zar ağlayıb səsini qaldırmaz, sadəcə gözləri yaşla dolar və ancaq hıçqırığı eşidilərdi. O, bəzən əzizinin ölümünə acıdığından, bəzən ümmətinin halına yandığından, bəzən Allah qorxusundan, bəzən də Quran ayələrini eşitdikdə ağlayardı. Bu, təqva ilə yanaşı ürək yanğısından, məhəbbətdən və şəfqətdən irəli gələn bir ağlamaqdır".[2]

**Peyğəmbərimizin ﷺ ağlamağına dair bəzi misallar:**

**–** Rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "Gecələrin birində Rəsulullah ﷺ mənə belə buyurdu: **"Ey Aişə, qoy bu gecə Rəbbimə ibadət edim".** Dedim: "Allaha and olsun ki, mən həm sənə yaxın olmağı, həm də səni sevindirən hər bir əməlini sevirəm". Rəsulullah ﷺ qalxıb dəstəmaz aldı və namaz qılmağa başladı. Namaz əsnasında o qədər ağladı ki, saqqalı, sinəsi və durduğu yer göz yaşına bələndi. Nəhayət, Bilal رضي الله عنه sübh namazına azan vermək üçün izin istəməyə gəldikdə, Rəsulullahın ﷺ ağladığını görüb dedi: "Niyə ağlayırsan, ya Rəsulullah?

[1] "əl-Həşr" surəsi, 21.

[2] "Zadul-Məad fi Hədyi Xayril-İbad", 1/175.

Axı, Allah sənin gələcək və keçmiş günahlarını bağışlamışdır". Rəsulullah ﷺ ona belə cavab verdi: **"Şükür edən bir qul olmayımmı?! Bu gecə mənə ayələr[1] nazil oldu. O ayələri oxuyub mənası barədə düşünməyənlərin vay halına!"[2]**

– Rəvayət edilir ki, Abdullah ibn Şixxir رضي الله عنه demişdir: "Rəsulullah ﷺ namaz qılarkən mən onun yanına gəldim. O, namazda için-için ağlayırdı".[3]

– Rəvayət edilir ki, Peyğəmbər ﷺ Allahın İbrahim peyğəmbər عليه السلام haqqında xəbər verdiyi: **"Ey Rəbbim, həqiqətən də onlar çox adamı azdırmışlar. Kim mənə tabe olsa, o, məndəndir. Kim də mənə asi olsa, *bilsin ki,* Sən Bağışlayansan, Rəhmlisən"[4]** ayəsini, habelə İsa peyğəmbərin عليه السلام: **"Əgər onlara əzab versən, sözsüz ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, şübhəsiz ki, Sən Qüdrətlisən, Müdriksən"[5]** dediyini oxuduqdan sonra əllərini *göyə* qaldırıb: "Allahım, ümmətim, ümmətim!"– dedi və ağladı. Onda Allah buyurdu: **"Ey Cəbrail! Muhəmmədin yanına get, ondan soruş: "Səni ağladan nədir?"** (Halbuki, Rəbbi onun nə cavab verəcəyini bilir.) Cəbrail عليه السلام onun yanına gəldi və ondan *ağlamağının səbəbini* soruşdu. Peyğəmbər ﷺ Cəbrailə عليه السلام *ümmətinə acıdığını* xəbər verdi. Onda Allah buyurdu: **"Ey Cəbrail! Muhəmmədin yanına get, ona de: "Biz səni ümmətin xüsusunda mütləq razı salacaq və səni kədərləndirməyəcəyik".[6]**

---

[1] "Ali-İmran" surəsi, 190-200.

[2] "Səhih İbn Hibban", 620; "Səhih ət-Tərğib vət-Tərhib", 1468.

[3] "Sunən Əbu Davud", 904; "Səhih ət-Tərğib vət-Tərhib", 544.

[4] "İbrahim" surəsi, 36.

[5] "əl-Maidə" surəsi, 118.

[6] "Səhih Muslim", 202.

**–** Rəvayət edilir ki, Rəsulullahın ﷺ zamanında Günəş tutuldu və Rəsulullah ﷺ qalxıb namaz qıldı. *Namazını o qədər uzatdı ki,* az qala rüku etməyəcəkdi. Sonra rükuya getdi və *onu o qədər uzatdı ki,* az qala rükudan başını qaldırmayacaqdı. Sonra başını qaldırıb dikəldi və *bu vəziyyətdə o qədər dayandı ki,* az qala səcdəyə getməyəcəkdi. Sonra səcdəyə qapandı və *onu o qədər uzatdı ki,* az qala başını *səcdədən* qaldırmayacaqdı. Sonra başını qaldırıb oturdu və *bu oturuşu o qədər uzatdı ki,* az qala səcdəyə getməyəcəkdi. Sonra yenə səcdəyə qapandı və *onu o qədər uzatdı ki,* az qala başını *səcdədən* qaldırmayacaqdı. Nəhayət, içini çəkə-çəkə ağlamağa başladı”.[1]

**–** Rəvayət edilir ki, Abdullah ibn Məsud رضي الله عنه demişdir: “Bir gün Peyğəmbər ﷺ mənə belə buyurdu: **“Mənə Quran oxu!”** Dedim: “Ya Rəsulullah, Quran sənə nazil olduğu halda, onu sənə mənmi oxuyacağam?!” Peyğəmbər ﷺ dedi: **“Bəli, mən onu başqasından dinləməyi xoşlayıram”.** Mən ona “ən-Nisa” surəsini oxumağa başladım. Nəhayət, bu surədəki: **“Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman *onların halı* necə olacaq?”**[2] ayəsinə çatdıqda, Peyğəmbər ﷺ mənə: **“Kifayətdir!”**– dedi. Mən başımı qaldırıb baxdım ki, Peyğəmbər ﷺ ağlayır”.[3]

Yuxarıda deyilənlərdən aydın olur ki, Peyğəmbərin ﷺ ağlamasına səbəb olan ən böyük amillərdən biri Quranı oxuması və onun ayələri üzərində düşünməsi olmuşdur. Peyğəmbərin ﷺ yolunu davam edən mömünlər olaraq, biz də eyni yolla getməliyik.

---

[1] “Səhih əl-Buxari”, 1003; “Səhih Muslim”, 910.

[2] “ən-Nisa” surəsi, 41.

[3] “Səhih əl-Buxari”, 4582; “Səhih Muslim”, 800.

# Quran-Kərimin xeyir-bərəkətinə nail olmağın yeddi yolu

Uca Allah Öz kitabında Quranın mübarək bir kitab olması barədə belə buyurur: **"Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır".**[1]

Qurani-Kərim özü-özlüyündə mübarək bir kitab olsa da, hər kəsə onun xeyir-bərəkətinə nail olmaq nəsib olmur. Belə ki, Allahın bəxş etdiyi xeyir-bərəkətə nail olmaq üçün Onun buyuruqlarını yerinə yetirmək lazımdır. Quranı yaxşı bilən İslam alimləri bu xeyir-bərəkətə nail olmağın yollarını bizə öyrətmişlər.

**Birincisi,** Quran ayələrini oxuyub, onlar üzərində düşünmək və ayələrdən ibrət götürməkdir. Bu xüsusda, Quranda belə buyurulur: **"Yaradan Rəbbinin adı ilə oxu! O, insanı qan laxtasından yaratdı. Oxu! Sənin Rəbbin *müqayisəsiz* səxavətə malikdir. O, qələmlə *yazmağı* öyrətdi. İnsana bilmədiklərini öyrətdi".**[2] Bu ayədən aydın başa düşülür ki, Allahın: **"Oxu!"** əmrinə asi olan müsəlman özünü bu kitabın xeyir-bərəkətindən məhrum etmiş olur.

Quranda həm də belə buyurulur: **"Bu mübarək Kitabı sənə nazil etdik ki, *insanlar* onun ayələrini düşünüb anlasınlar, ağıl sahibləri də ondan ibrət götürsünlər".**[3]

Hərçənd, Quranı başa düşmədən oxuyan insan da xeyir-bərəkətə nail olur[4], lakin oxuduğunun mənasını öyrəndikdə, üstəlik, öyrəndiyinə əməl etdikdə bu xeyir-bərəkət qat-qat artır.

---

[1] "əl-Ənam", surəsi, 155.

[2] "əl-Ələq", surəsi, 1-5.

[3] "Sad", surəsi, 29.

[4] Quranı oxuyan mömin oxuduğu hər bir hərfə görə on savab qazanır, haqq yoldan azmır, oxuduğu evdə xeyir-bərəkət olur, Allah onu bu əməlinin sayəsində ucaldır, mələklərlə eyni dərəcədə olur və s.

**İkincisi,** Quranı vaxtaşırı avazla oxumaq, habelə onu başqasından dinləməkdir. Bu xüsusda, Quranda belə buyurulur: **“Quran oxunduğu zaman onu dinləyin və susun ki, bəlkə sizə rəhm olunsun”.**[1] Allahın rəhmətinə qovuşmaq müsəlmanın nail ola biləcəyi ən böyük xeyirlərdəndir.

Peyğəmbər ﷺ də belə demişdir: **“Quranı avazla oxumayan kəs bizdən deyildir”.**[2] Bu hədisdən aydın başa düşülür ki, Peyğəmbərin ﷺ buyuruğunu yerinə yetirməyən müsəlman özünü bu kitabın xeyir-bərəkətindən məhrum etmiş olur.

**Üçüncüsü,** Quran ayələrinin mənasını öyrənmək, onu əzbərləmək və başqalarına öyrətməkdir. Bu xüsusda, Quranda belə buyurulur: **“Mərhəmətli *Allah;* Quranı öyrətdi”.**[3] Peyğəmbər ﷺ isə belə demişdir: **“Ən xeyirliniz Quranı öyrənən və onu *başqalarına* öyrədəninizdir”.**[4]

Demək, xeyir-bərəkət sahibi olan Allahın öyrətdiyini öyrənməyən kimsə xeyir-bərəkətə nail ola bilməz.

**Dördüncüsü,** Quranda buyurulanları yerinə yetirməkdir. Bu xüsusda, Quranda belə buyurulur: **“Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır. Ona tabe olun və *Allahdan* qorxun ki, bəlkə sizə rəhm oluna!”**[5]

Demək, Allahın mərhəmətinə və lütfünə nail olmaq üçün bu mübarək Kitabda buyurulanları yerinə yetirmək vacibdir.

Quranla hökm vermək və başqalarını da bu kitabda buyurulanları yerinə yetirməyə dəvət etmək də bu qəbildəndir. Bu xüsusda, Quranda belə buyurulur: **“Yoxsa onlar cahiliyyət**

---

[1] “əl-Əraf”, surəsi, 204.
[2] “Səhih əl-Buxari”, 7527.
[3] “ər-Rəhman”, surəsi, 1-2.
[4] “Səhih əl-Buxari”, 5027.
[5] “əl-Ənam”, surəsi, 155.

***dövrünün*** **hökmünü istəyirlər?!** ***Nəyin haqq olduğunu*** **yəqin bilən bir camaat üçün Allahdan daha yaxşı hökm verən kimdir?!”**[1]

Ayədən aydın başa düşülür ki, ən ədalətli hökm Allahın hökmüdür və ən ədalətli hakim Allahdır. Demək, insanlar peyğəmbərlərin ﷺ zamanında olduğu kimi, öz aralarında Allahın hökmü ilə hökm versələr, xeyir-bərəkətə nail olarlar. Əks halda, aşağıda qeyd edilən ayələrdə xəbər verildiyi kimi, vəziyyətdən asılı olaraq ya kafir, ya zalım, ya da fasiq olarlar. Bu xüsusda nazil olmuş ayələrə diqqət edək:

**“Allahın nazil etdiyi** ***Kitabla*** **hökm verməyənlər – məhz onlar kafirdirlər”.**[2]**; “Allahın nazil etdiyi** ***Kitabla*** **hökm verməyənlər – məhz onlar zalımdırlar”.**[3]**; “Allahın nazil etdiyi** ***Kitabla*** **hökm verməyənlər – məhz onlar fasiqdirlər”.**[4]

**Beşincisi,** Quran vasitəsilə şəfa tapmaqdır. Bu xüsusda, Quranda belə buyurulur: **“Biz Quranda möminlər üçün şəfa və mərhəmət** ***olan ayələr*** **nazil edirik”.**[5] Ayədən aydın başa düşülür ki, xəstə adam bu mübarək Kitabı oxusa və ya dinləsə şəfa tapa bilər. Bu fikri isbat edən hədisdə xəbər verilir ki, Əbu Səid əl-Xudri رضي الله عنه demişdir: “Bir gün Peyğəmbərin ﷺ səhabələrindən bir dəstəsi səfərə çıxdı. Nəhayət, onlar gəlib bədəvi qəbilələrindən birinə məxsus bir kənddə dayandılar. Səhabələr onların evində qonaq olmaq istədilər, lakin onlar səhabələri *yeməyə* qonaq etmək istəmədilər. Bu əsnada qəbilə başçısını *əqrəb*

---

[1] “əl-Maidə”, surəsi, 50.

[2] “əl-Maidə”, surəsi, 44.

[3] “əl-Maidə”, surəsi, 45.

[4] “əl-Maidə”, surəsi, 47.

[5] “əl-İsra” surəsi, 82.

sancdı. Kənd əhli ona əllərindən gələn köməyi göstərməyə çalışdı, lakin bu cəhdlərin heç bir faydası olmadı. Onlardan bəzisi dedi: "Yaxşı olar ki, gedib *kəndimizə* təşrif buyurmuş adamlara müraciət edəsiniz, bəlkə onlarda bir əlac tapılar". Onlar səhabələrin yanına gəlib dedilər: "Ey camaat! Qəbilə başçımızı əqrəb sancıb. Nə qədər çalışdıqsa, əlac tapa bilmədik. Bəlkə sizdən birinizdə bir əlac tapıla?" Səhabələrdən biri dedi: "Bəli, vallahi ki, mən ruqya[1] oxuya bilirəm. Biz sizin qonağınız olmaq istədik, lakin siz bizi *yeməyə* qonaq etmədiniz. Elə buna görə də bizə zəhmət haqqı verməyincə, mən sizin *xəstəniz* üçün ruqya oxumayacağam". Sonra onlar *müalicə müqabilində* səhabələrə bir sürü qoyun verəcəklərinə razılaşdılar. Bundan sonra o, *qəbilə başçısının yanına gəlib onun yarasına* yüngülcə üfürdü və "əl-Fatihə" surəsini oxudu. *Bir az keçdikdən* sonra qəbilə başçısı sanki buxovdan azad oldu və xəstə deyilmiş kimi ayağa qalxıb gəzməyə başladı. Onlar səhabələrə razılaşdıqları zəhmət haqqını verdilər. Bu vaxt səhabələrdən biri: "*Qoyunları* bölüşdürün!"– dedi. Ruqya oxuyan səhabə isə: "Peyğəmbərin ﷺ yanına gedib hadisəni ona danışmayınca və onun nə hökm verəcəyini öyrənməyincə, heç bir şey etməyin!"– deyə etiraz etdi. Onlar Peyğəmbərin ﷺ yanına gəlib hadisəni ona danışdıqda, o soruşdu: **"Sən nə bilirdin ki, bu, ruqyadır?"** Sonra dedi: **"Siz düz etmisiniz. *Qoyunları* bölüşdürün və özünüzlə yanaşı mənim üçün də bir pay ayırın".** *Bunu deyəndən* sonra Peyğəmbər ﷺ gülümsədi".[2]

---

[1] Ruqya, hərfi tərcümədə "ovsun" deməkdir. Lakin burada "ovsun" deyildikdə sehr, cadu və ya pitik deyil, əksinə, Allahın Kəlamı və ya Peyğəmbərin ﷺ duaları vasitəsilə xəstəni müalicə etmək nəzərdə tutulur.

[2] "Səhih əl-Buxari", 2276.

# Qurani-Kərinin doğru yola yönəltdiyi kimsələr

Möhtərəm müsəlman! Məlumun olsun ki, Allahın kitabını başa düşmək və onun vasitəsilə doğru yola yönəlmək hər kəsə nəsib olmur. Nə çox insan var ki, Quran oxumaq və Quranda buyurulanları yerinə yetirmək ona müvəffəq olmur. Dolayısıyla, etdiyi günahlara görə Allah onu Öz dinini anlamağı müvəffəq etmir. Hətta bəzən adam Quran oxusa belə, deyilənləri anlamır. Allahın kitabını başa düşmək və bunun sayəsində də ömrünün sonunadək haqq yolda sabit qalmaq istəyən kəs Allahın vəsf etdiyi kimsələrdən olmalıdır. Bunun üçün o insanın niyyəti təmiz olmalı, Quranı oxuyub öyrənməli və özünə buyurulanları dərhal yerinə yetirməli, qadağalardan da çəkinməlidir. Aşağıdakı ayələrə bir diqqət edin və baxın görün Allah kimləri bu mübarək Kitab vasitəsilə doğru yola yönəldir.

**“Biz onlara elmimizlə izah etdiyimiz, iman gətirən qövm üçün hidayət və mərhəmət olan bir Kitab göndərdik”.**[1]

**“Bu, içində heç bir şübhə olmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır. O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən** ***Allah yolunda*** **xərcləyirlər”.**[2]

**“Ta Sin. Bu, Quranın və açıq-aydın bir Kitabın ayələridir. Möminlərə doğru yol göstəricisi və müjdədir. O kəslər ki, namaz qılır, zəkat verir və axirətə qətiyyətlə inanırlar”.**[3]

**“Əlif Ləm Mim. Bu, hikmətli Kitabın ayələridir. Xeyirxah əməl sahiblərinə doğru yol göstəricisi və rəhmətdir”.**[4]

---

[1] “əl-Əraf”, surəsi, 52.

[2] “əl-Bəqərə”, surəsi, 2-3.

[3] “ən-Nəml”, surəsi, 1-3.

[4] “Loğman”, surəsi, 1-3.

Yuxarıda zikr olunan ayələrdəki vəsflərin xülasəsi belədir:

1. Allahdan qorxub pis əməllərdən çəkinmək;
2. Mömin olmaq;
3. Qeybə iman gətirmək;[1]
4. Namaz qılmaq;
5. Zəkat vermək;
6. Axirətə iman gətirmək;
7. Muhsin[2] – yaxşı əməl sahibi olmaq.

Sonuncu vəsflə bağlı qeyd etmək lazımdır ki, kafirlər də yaxşı əməllər edirlər, lakin Allah onları muhsin adlandırmır, əksinə, Quranda onların əbədi olaraq Cəhənnəm əhlindən olacaqlarını bildirir. Bəli, Allahın ədalətindəndir ki, kafirlər etdikləri yaxşılıqların əvəzini bu dünyada alırlar, lakin kafir olduqlarına görə Qiyamət günü onların heç bir mükafatı olmayacaq.

Allahdan istəyimiz budur ki, hamımıza son nəfəsimizədək Quran oxumağı, buyurulanları yerinə yetirməyi, qadağalardan çəkinməyi və bunun sayəsində ayələrdə zikr olunan vəsfləri özümüzdə cəm etməyi və ömrümüzün sonunadək haqq yoldan azmamağı nəsib etsin!

---

[1] Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə və qədərə iman gətirmək.

[2] Muhsin o kəsdir ki, yaxşı əməli edəndə etiqad edir ki, Allah onu görür və beləliklə də, o əməli yalnız Allahın rizasını qazanmaq üçün edir.

## Qurani-Kərimi əzbərləməyin on bir qaydası

Əziz müsəlmanlar! Bu fəsildə qeyd edilən qaydalar Quranı ərəbcə əzbərləmək istəyənlərə aiddir. Quranı əzbərləmək istəyən kimsə bu qaydalara riayət etsə, ümid edirik ki, Allah onu bu mübarək Kitabı əzbərləməyə müvəffəq edər və bizə də bundan savab çatar. Qaydaları aşağıdakı ardıcıllıqla təqdim edirik:

**1. İxlaslı olmaq.**

Quranı əzbərləmək istəyən mömin hər şeydən əvvəl niyyətini düzəltməlidir. Çünki əməllər niyyətə görə hesaba alınır. Başqa cür desək, doğru niyyətsiz olan əməl ibadət kimi qəbul edilmir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Əməllər ancaq niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey qalacaqdır".**[1] Demək, Quranı yalnız Allahın rizasını qazanmaq niyyəti ilə əzbərləmək lazımdır. İxlaslı olmaq isə mömin adama savab qazandırır. Belə ki, uca Allah başda Peyğəmbərimiz ﷺ olmaqla hər bir müsəlmana ixlaslı olmağı buyurur: **«De: "Mənə, dini yalnız Allaha məxsus edərək Ona ibadət etmək əmr olunmuşdur!"»**[2]

Quranı dünya mənfəəti xatirinə, yaxud özünü kiməsə göstərmək məqsədilə əzbərləyən şəxs savab qazanmır, əksinə, özünü günaha batırır. Bu xüsusda, Quranda belə buyurulur: **"Əgər *Allaha* şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan. Sən yalnız Allaha ibadət et və şükür edənlərdən ol!"**[3]

---

[1] "Səhih əl-Buxari", 1; "Səhih Muslim", 1907.
[2] "əz-Zumər" surəsi, 11.
[3] "əz-Zumər" surəsi, 65-66.

**2. Düzgün tələffüz etmək.**

Quranı əzbərləmək istəyən adam əvvəlcə əzbərləyəcəyi ayənin təcvid (fonetik) qaydalarına əsasən düzgün oxunuşunu öyrənməlidir. Bu qaydaları Quranı yaxşı bilən insandan öyrənmək lazımdır. Ərəb dilini mükəmməl bilən Peyğəmbərimiz ﷺ Quranı Cəbraildən عليه السلام dinləyərək öyrənmişdir. Rəvayət edilir ki, Cəbrail عليه السلام ramazan ayının hər gecəsində Peyğəmbərlə ﷺ görüşər və onunla birgə Quranı oxuyub təkrar edərdi.[1]

Peyğəmbərimiz ﷺ səhabələrinə Quranı şifahi olaraq öyrətmiş, ondan sonra səhabələr də Quranı sonrakı nəsilə bu qaydada öyrətmişlər. Odur ki, Quranı əzbərləmək istəyən adam onu şifahi olaraq mahir bir qaridən öyrənməlidir.

**3. Quranı əzbərləmək üçün gündəlik hədəf təyin etmək.**

Quranı əzbərləmək istəyən şəxs hər gün əzbərləyə biləcəyi qədəri, məsələn, bir neçə ayə və ya bir səhifə, yaxud iki səhifə, yaxud da cüzün səkkizdə birini və s. müəyyən etməlidir. O nə qədər əzbərləyəcəyini yəqin etdikdən sonra onu dəfələrlə təkrarlayıb tam şəkildə öyrənməlidir. Bu təkrar da öz növbəsində təcvid qaydalarına müvafiq və avazla olmalıdır. Belə ki, bir ritmdə olan avaz qulağa xoş gəlir, bu isə dili müəyyən avaza öyrədərək əzbərləməyə çox kömək edir. Bununla da həmin şəxs müəyyən bir ayəyə uyğun olan avazda və ya onun oxunuş ritmində çatışmamazlıq hiss etdikdə, orada olan xətanı dərhal hiss edir, beləcə, qiraəti yenidən təkrar edir.

Qeyd edək ki, Quranı avazla oxumaq müsəlmandan tələb olunan əməllərdəndir. Bu xüsusda, Rəsulullah ﷺ belə demişdir: **"Quranı avazla oxumayan kəs bizdən deyildir".**[2]

---

[1] "Səhih əl-Buxari", 6.

[2] "Səhih əl-Buxari", 7527.

**4. Gündəlik nəzərdə tutulan ayələri gözəl şəkildə əzbərləməyincə digər ayələrə keçməmək.**

Quran əzbərləyən şəxs əzbərlədiyini tam yadda saxlamamış yeni ayələrə keçməməlidir. Bu onun əzbərlədiyinin tam olaraq qəlbinə həkk olunması üçündür. Əlbəttə ki, insan əzbərlədiyi ayələri hafizəsinə həkk etmək üçün həmin ayələri namazlarda, ələlxüsus da, gecə namazlarında təkrarlasa, daha tez yadda qalar. Peyğəmbər ﷺ və onun səhabələri gecə namazlarını uzun-uzadı qılar və əzbər bildikləri surələri oxuyub təkrar edərdilər. Səhih hədislərdə xəbər verilir ki, Peyğəmbər ﷺ gecə namazını on bir rükət qılar və hər rükətdə uzun-uzadı Quran oxuyardı.[1] Peyğəmbərin ﷺ və onun səhabələrinin gecə namazı qılmaları xüsusunda Quranda belə xəbər verilir: **"Həqiqətən, Rəbbin bilir ki, sən və səninlə olan *səhabələrin* bir qismi *bəzən* gecənin üçdə ikisinə yaxın qismini, *bəzən* yarısını, *bəzən də* üçdə birini *ibadət üçün* durursunuz".**[2]

Demək, onlar bəzən gecənin səkkiz, bəzən altı, bəzən də dörd saatını ibadətdə keçirərdilər. İndi özümüzə belə bir sual verək: "Hazırki müsəlmanlardan gecənin heç olmasa üçdə birini ibadətdə keçirəni varmı?"

**5. Eyni çapda olan Qurandan əzbərləmək.**

Quranı əzbərləməyə kömək edən amillərdən biri də davamlı olaraq eyni çapda olan kitabdan istifadə edilməsidir. Belə ki, insan eşitməklə yanaşı ayələrin yazılışını görməklə də

---

[1] Səhih hədisdə Huzeyfə ibn Yəman رضي الله عنه Peyğəmbərimizin ﷺ gecə namazının bir rükətində "əl-Bəqərə", "Ali-İmran" və "ən-Nisa" surələrini oxuduğunu rəvayət etmişdir. (Bax: "Səhih Muslim", 772).

[2] "əl-Muzzəmmil" surəsi, 20.

əzbərləyir. Çünki Quran kitabını çox oxuduqda və ona çox nəzər saldıqda, ayələrin orada olan şəkilləri və yerləri də yadda qalır. Fərqli-fərqli çap edilmiş kitablardan, yəni səhifələrində ayələrin yerləri fərqli olan müxtəlif çaplarla nəşr olunmuş Quran kitablarından əzbərləyən şəxsə Quranı əzbərləmək daha çətin olur.

**6. Ayələrin yadda qalmasını asanlaşdırmaq üçün onların mənasını öyrənmək.**

Quranı əzbərləməyə kömək edən ən böyük amillərdən biri də ayələri başa düşmək və onlar arasında olan bağlılığı öyrənməkdir. Yaxşı olar ki, Quran əzbərləyən şəxs ayələrin təfsirini oxusun və onların arasında olan bağlılığı öyrənsin. Bu da öz növbəsində ayələri yada salmağı asanlaşdırır.

**7. Bir surəni axıradək əzbərləmədən digərinə keçməmək.**

Quran əzbərləyən şəxs hər hansı bir surəni əzbərləyib başa çatdırdıqdan sonra onu tam şəkildə yaddaşına həkk etmədən başqa surəyə keçməməlidir. Yəni, onun dili bu surəni asanlıqla tələffüz etməli və o, ayələri yada salmaqda heç bir çətinlik çəkməməlidir. Əksinə, onun hafizəsi o dərəcədə güclü olmalıdır ki, hərdən fikri ayənin mənasını izləməkdən yayınsa belə, surəni tələsmədən, asanlıqla oxuya bilsin. Necə ki, hər birimiz heç bir çətinlik çəkmədən və hazırlaşmadan "əl-Fatihə" surəsini oxuyuruq. Bu da o surəni çox təkrar etməyimizdən və onu daim oxumağımızdan irəli gəlir. Nadir hallar istisna olmaqla, Quranın bütün surələrinin hifzi "əl-Fatihə" surəsinin hifzi kimi olur. Xülasə budur ki, Quran əzbərləyən şəxs yalnız əzbərlədiyi surəni mükəmməl şəkildə hafizəsinə həkk etdikdən sonra digərinə keçməlidir.

**8. Quranı əzbərdən başqasına təhvil vermək.**

Quran əzbərləyən kəs təkcə öz hafizəsinə arxayın olmamalıdır. Əksinə, əzbərlədiyini mütəmadi olaraq başqasına təhvil verməli və ya onun əzbərdən danışdığını Qurandan izləməlidir. Quran əzbərləyən şəxs nəyi isə unutduqda və ya diqqətsiz olaraq təkrarladıqda, onun oxuduğunu izləyən adam onun yadına salır. Bəzən biz surəni səhv əzbərləyir və Qurana nəzər saldıqda belə buna diqqət yetirmirik. Çünki çox vaxt əzbərdən oxumaq görməyi qabaqlayır və beləliklə həmin şəxs əzbərdən oxuyarkən Qurana baxsa da, xətasını görmür. Elə buna görə də, Quranı əzbərdən başqasına danışmaq ona bu xətaları düzəltməyə və onlara daim diqqət yetirməyə səbəb olur. Peyğəmbərimizin ﷺ Quranı əzbərdən Cəbrailə عليه السلام oxuyub təkrar etməsini[1] buna misal göstərmək olar.

**9. Quranı davamlı olaraq oxuyub təkrarlamaq.**

Quranı hafizəsində qoruyub saxlamaq istəyən adam onu davamlı olaraq oxumalıdır. Əks halda, Quran onu tərk edə bilər. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur:

**“Allahın Kitabını öyrənin, içində buyurulanlara əməl edin və onu avazla oxuyun! Muhəmmədin canı əlində olan *Allaha* and olsun ki, bu Quran *öz sahibini*[2] ipindən açılmış və öz sahibindən qaçmış dəvədən daha tez tərk edər”.[3]**

**“Birinizin: “Filan və filan ayəni unutmuşam”– deməsi necə də pisdir. Əksinə, bu, ona unutdurulmuşdur. Elə isə, Quranı *təkrar-təkrar* oxumağa davam edin. Çünki Quran**

---

[1] “Səhih əl-Buxari”, 6.

[2] “Musnəd İmam Əhməd”, 4/150; “Silsilə əl-Əhadis əs-Səhihə”, 3285.

[3] Yəni onu əzbərləmiş kimsəni.

**insanın qəlbini kəndirdən qırılıb qaçan heyvandan daha tez tərk edir".**[1]

**"Quranı əzbərdən bilən adam dəvələrini buxovda saxlayan kimsəyə bənzəyir. Əgər bu adam onları bu vəziyyətdə saxlasa, onları daim özündə saxlamış olar, yox, əgər başlı-başına buraxsa, onlar qaçıb gedərlər".**[2]

Quran hafizinin hər gün ən azı bir, ən çoxu isə on cüz təkrarlaması tövsiyə olunur. Rəvayət edilir ki, Abdullah ibn Amr ﵄ demişdir: "Rəsulullah ﷺ mənə: **"Quranı ayda bir dəfə xətm et"**– deyə buyurdu. Mən dedim: *"Ya Rəsulullah,* mənim *bundan da çox oxumağa* gücüm çatar". O: **"Elə isə, onu üç günə xətm et"**– buyurdu".[3]

Başqa bir rəvayətdə Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ Quranı üç gündən tez xətm etməzdi!"[4]

Yenə bir rəvayətdə Rəsulullah ﷺ demişdir: **"Hər kim Quranı üç gündən tez vaxtda oxuyub-bitirərsə, onu başa düşmüş olmaz!"**[5]

**10. Oxşar ayələrə diqqət yetirmək.**

Quranda həm mənaca, həm də oxunuşca bir-birinə bənzəyən ayələr vardır. Bu xüsusda, Quranda belə buyurulur: **"Allah Sözün ən gözəlini *ayələri* bir-birinə bənzəyən və təkrarlanan Kitab kimi nazil etdi".**[6]

---

[1] "Səhih əl-Buxari", 5032.

[2] "Səhih əl-Buxari", 5031.

[3] "Səhih Əbu Davud", 1391; "Səhih Əbu Davud", 1258.

[4] "Təbəqat İbn Səd", 1/376; "Səhih əl-Cami", 4866.

[5] "Musnəd İmam Əhməd", 2/164; "Sunən ət-Tirmizi", 2946; "Sifətu Salətin-Nəbi ﷺ", səh: 519-520.

[6] "əz-Zumər" surəsi, 23.

Məlumunuz olsun ki, Quranda olan altı mindən çox ayədən təxminən iki minə yaxını oxşar ayələrdir. Bu ayələr bir-birindən bəzən bir hərflə, bəzən də bir kəlmə ilə fərqlənirlər. Odur ki, mahir qari olmaq istəyən kəs belə ayələrə diqqət yetirməlidir.

Bu mövzuda yazılmış kitabları oxumaq da məsləhətdir. O kitablardan ən məşhuru bu iki kitabdır:

1. Xətib əl-İskafi, "Durratut-tənzil və ğurratut-tə'vil".
2. Mahmud əl-Kirmani, "Əsrarut-təkrar fil-Quran".

**11. Quranı "qızıl hafizə" yaşında əzbərləmək.**

Xoşbəxt o kəsdir ki, ona ömrünün "qızıl-hafizə" illərində bu mübarək Kitabı əzbərləmək nəsib olub. Bu illər insanın təqribən beş yaşından iyirmi üç yaşına kimi olan dönəmidir. Həmin vaxt insanın hafizəsi çox güclü olur və buna görə də o illər "qızıl hafizə" illəri adlanır. Odur ki, hər bir insan ömrünün "qızıl hafizə" illərindən səmərəli istifadə etməli, Allahın kitabından bacardığı qədər əzbərləməlidir. Peyğəmbərimizin ﷺ bu xüsusda bizə buyurduğuna diqqət yetirin: **"Beş şey gələnədək beş şeydən istifadə et: ölənədək həyatından, xəstələnənədək sağlamlığından, məşğul olanadək boş vaxtından, <u>qocalanadək cavanlığından</u> və bir də kasıblayanadək var-dövlətindən".**[1]

[1] "Sunən ən-Nəsai əl-Kubra", 11832; "Səhih əl-Cami", 1077.

# Qurani-Kərimi oxumayanların halı

Möhtərəm müsəlmanlar! Bilin ki, uca Allah və Onun elçisi ﷺ hər bir müsəlmana dinimizin iki əsasından biri olan Quranı oxumağı əmr etmişdir. Allah Öz peyğəmbərinə ﷺ belə buyurmuşdur: **“***De:* **“Mənə müsəlman olmaq və Quran oxumaq əmr edilib”.**[1]

Digər ayədə O belə buyurur: **“Rəbbinin Kitabından sənə vəhy olunanları oxu”.**[2]

Hədisdə isə Peyğəmbər ﷺ müsəlmanlara belə buyurmuşdur: **“Quran oxuyun!”.**[3]

Bu dəlillərdən aydın olur ki, Quran oxumayan müsəlman Allaha və Onun rəsuluna ﷺ asilik etmiş sayılır. Üstəlik, onun Quranı tərk etməsi Allaha və Onun rəsuluna ﷺ olan sevgisinin olduqca az olmasına dəlalət edir. Peyğəmbərin ﷺ səhabəsi Abdullah ibn Məsud رضي الله عنه bu xüsusda demişdir: “Kim Allahı və Onun rəsulunu ﷺ sevdiyini yoxlamaq istəyirsə, qoy baxsın: əgər Quranı sevirsə, demək Allahı və Onun rəsulunu ﷺ da sevir”.[4]

Müqayisə üçün bir neçə dünyəvi misal çəkək:

*– Bir oğlan bir qıza sevgi məktubu yazır, o qız da ona bir müddət sonra məktubla cavab verir və məktubunda ona öz istəklərini bildirir. O gənc, qızın məktubunu dərhal açıb oxuyur və onun istəklərini diqqətlə nəzərdən keçirir, sonra da o istəkləri yerinə yetirmək üçün əlindən gələni edir. Məktubu da əzizləyərək ürəyinin başında saxlayır və darıxanda açıb onu təkrar-təkrar oxuyur, sevgilisinin məktubundan həzz alır.*

---

[1] “ən-Nəml”, surəsi, 91-92.

[2] “əl-Kəhf” surəsi, 27.

[3] “Səhih Muslim”, 1910.

[4] Beyhəqi, “Şoəbul-İman”, 1861.

Bəs Allahı sevdiyini iddia edən müsəlman onu yaradan və ona ruzi verən qüdrətli Allahın göndərdiyi risaləni (Quranı) açıb oxuyurmu?! Allahın buyuruqlarını dərhal yerinə yetirirmi?! O risaləni əzizləyərək hər şeydən uca tuturmu?! Bu risaləni oxuyub ondan həzz alırmı, qəlb rahatlığı tapırmı?! Yoxsa onun Allaha olan sevgisi sadəcə dilindədir?!

*– Adam vəzifə sahibidir, işləri qaydasında gedir, çoxlu pul qazanır, gün-güzəranı da yaxşı keçir. Günlərin bir günü rəhbərlikdən ona məktub gəlir. Adam dərhal o məktubu açır və həyəcanla məktubda buyurulanları oxuyur, sonra da köməkçilərini çağırıb məktubla bağlı məşvərət edir, onlardan məsuliyyət daşıdıqları işin hesabatını hazırlamağı tələb edir, özü də buna ciddi nəzarət edir və nəhayət, hazırlanmış sənədləri götürüb təlaş içində rəhbərlik qarşısında hesabat verməyə gedir. O belə edir ki, onu vəzifədən kənarlaşdırmasınlar, yaxud uzun illər yığdığı mal-dövləti əlindən almasınlar, yaxud həbs etməsinlər.*

Ritorik bir sual verək: "Bu adam ona göndərilmiş məktubu açmayıb, rəhbərinə tabeçilik göstərməməyə cürət edə bilərmi?"

Bəs necə olur ki, özünü müsəlman hesab edən onu yaradan və ona ruzi verən uca Allahın bəşəriyyətə göndərdiyi risaləni (Quranı) açıb oxumur? Məgər bu risalədə buyurulanları yerinə yetirmədiyinə görə o narahat olmur?! Qiyamət günü Allahın hüzurunda haqq-hesaba çəkiləcəyi barədə düşünmür?! Allaha itaət etmədiyinə görə cəhənnəmlik olacağından qorxmur?! Yoxsa onun Allaha olan sevgisi sadəcə dilindədir?!

*– Universitetdə oxuyan tələbə uzun illər gecə-gündüz saysız-hesabsız kitablar oxuyub hazırlaşır ki, imtahandan kəsilməsin, təhsilini müvəffəqiyyətlə başa vurub diplomunu alsın, sonra da o diplomla özünə iş tapa bilsin.*

Bəs necə olur ki, həmin insan onu yaradan və ona ruzi verən qüdrətli Allahın göndərdiyi bircə kitabı (Quranı) oxuyub, qarşıda onu gözləyən ən böyük imtahana – Allahın hüzurunda çəkiləcəyi haqq-hesaba hazırlıq görmür? Niyə əbədi səadətə qovuşmaq – cənnətlik olmaq üçün səy göstərmir?

Qoy hər kəs vicdanla özünə bu sualları versin və cavablarına müvafiq olaraq özünü islah etməyə səy göstərsin, səmimi olub Allahdan yardım diləsin:

*– Quran oxuyurammı?*[1]

*– Oxuduqlarım barədə düşünürəmmi?*[2]

*– Qurandakı əmrləri və qadağaları yerinə yetirirəmmi?*[3]

*– Öyrəndiklərimi başqalarına öyrədirəmmi?*[4]

---

[1] **"Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Heç yada salan varmı?!"** ("əl-Qəmər" surəsi, 17, 22, 32 və 40-cı ayələr).

[2] **"Məgər, onlar Quran barədə düşünmürlərmi?! Yoxsa qəlbləri qıfıllıdır?! Özlərinə hidayət yolu bəlli olduqdan sonra *haqdan dönüb* geriyə üz tutan kimsələrə şeytan *günah işləri* gözəl göstərmiş və onlara uzun ömür vəd etmişdir. Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət edənlərə: "Biz bəzi işlərdə sizə itaət edəcəyik!"– dedilər. Allah onların sirlərini bilir. Bəs mələklər onların üzünə və arxasına vura-vura canlarını alanda *onların halı* necə olacaq?!"** ("Muhəmməd" surəsi, 24-27).

[3] **"Artıq sizə Rəbbinizdən açıq-aydın bir dəlil, doğru yol göstəricisi və mərhəmət gəlmişdir. Allahın ayələrini yalan sayan və onlardan üz çevirən kimsədən daha zalım kim ola bilər? Ayələrimizdən üz çevirənləri üz çevirdiklərinə görə pis əzabla cəzalandıracağıq".** ("əl-Ənam" surəsi, 157).

[4] Peyğəmbər ﷺ demişdir: **"Məndən öyrəndiyiniz bir ayə olsa belə, onu başqalarına təbliğ edin".** ("Səhih əl-Buxari", 3461).

## Son söz

Əziz müsəlmanlar! Unutmayın ki, bizə hidayət verən və bizi doğru yola yönəldən yalnız Allahdır. Odur ki, Onun əmrinə itaət edərək Qurandan möhkəm yapışmalıyıq. Bu xüsusda, Quranda belə buyurulur: **"Hamınız Allahın ipindən möhkəm yapışın və firqə-firqə olmayın!"**[1] Burada **"ip"** deyildikdə, Quran qəsd edilir. Hədisdə də deyildiyi kimi: **""Bu Quran, bir ipdir. Onun bir ucu Allahın Əlində, digər ucu isə sizin əlinizdədir. Elə isə ondan möhkəm tutun! Siz ondan möhkəm tutduqca, əsla zəlalətə düşməz və heç vaxt həlak olmazsınız!""**[2]

Səhabələr bu ipdən möhkəm tutduqlarına görə zəlalətə düşmədilər. İmam Malik ﷺ onları nümunə çəkərək demişdir: "Bu ümmətin əvvəlinciləri nəyin vasitəsilə islah olmuşlarsa, axırıncıları da yalnız onun vasitəsilə islah ola bilərlər."[3]

Sonda hamımız üçün Allaha dua edib deyirik:

(( اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ بِكُلِّ اسْمٍ هُوَ لَكَ سَمَّيْتَ بِهِ نَفْسَكَ، أَوْ أَنْزَلْتَهُ فِي كِتَابِكَ، أَوْ عَلَّمْتَهُ أَحَدًا مِنْ خَلْقِكَ، أَوِ اسْتَأْثَرْتَ بِهِ فِي عِلْمِ الْغَيْبِ عِنْدَكَ، أَنْ تَجْعَلَ الْقُرْآنَ رَبِيعَ قُلُوبِنَا، وَنُورَ صُدُورِنَا، وَجَلاءَ حُزْنِنَا، وَذَهَابَ هَمِّنَا ))

**"Allahım, Sənə, Özünə verdiyin, yaxud Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin və ya Öz yanında olan qeyb elmində saxladığın Özünə aid olan hər bir adla yalvarırıq ki, Quranı qəlbimizin baharı və köksümüzün nuru edəsən, üzüntümüzün aradan qalxması və kədərimizin getməsi üçün səbəb edəsən!"**[4]

---

[1] "Ali-İmran" sursəi, 103.
[2] "Səhih ibn Hibban", 122; "Silsilə əl-Əhadis əs-Səhihə", 713.
[3] "Qaidətul-Cəliyyə", səh: 53-62.
[4] "Musnəd İmam Əhməd", 1/391; "Silsilə əl-Əhadis əs-Səhihə", 199.

# MÜNDƏRİCAT

Müqəddimə ....................................................................................5
Qurani-Kərimin nazil olması və kitab halına salınması tarixi .....10
*Qurani-Kərimin mərhələlərlə qorunub-saxlanılması: ............15*
*Qurani-Kərimin kitab halına salınmasının mərhələləri: ........17*
Qurani-Kərimin fəziləti ..............................................................23
*Mövzu ilə bağlı bəzi səhabələrin nəsihətləri: ..........................31*
Qurani-Kərimi oxumaq üçün ən fəzilətli vaxt ..........................32
Qurani-Kərimi oxuyub-ağlayanlar ............................................37
*Peyğəmbərimizin ﷺ ağlamağına dair bəzi misallar: ............45*
Qurani-Kərimin xeyir-bərəkətinə nail olmağın yeddi yolu .......48
Qurani-Kərimin doğru yola yönəltdiyi kimsələr .....................52
Qurani-Kərimi əzbərləməyin on bir qaydası ............................54
Qurani-Kərimi oxumayanların halı ...........................................61
Son söz ........................................................................................64